# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 19 (3629) Cümə axşamı / 4-10 iyun 2026-cı il Qiyməti 40 qəpik


MÜSAHİB

## Tehrandakı reaktoru ABŞ tikib



Müctəba Dəmirçilu, İranın ölkəmizdəki səfiri

*Xeyli vaxtdır, ABŞ-İsrail cütlüyü ilə İran arasında nisbi atəşkəs razılaşması mövcud olsa da, ara-sıra tərəflərin bir-birinə hava hücumu etdiyini eşidirik; məsələn, elə dünən xəbər yayıldı ki, İran Küveyt və Bəhreyn ərazilərinə zərbələr endirib. Amerika da eynilə İranı bombalayır. Üstəlik, hansısa məsələlərə görə çıxmaza girən danışıqların aqibəti necə olacaq? Ölkədə ictimai-sosial vəziyyət necədir? Bütün bu məsələlərə aydınlıq gətirmək üçün İranın ölkəmizdəki səfiri Müctəba Dəmirçilu ilə söhbətləşdik.*

- Bu məsələdən söz açarkən problemin keçmişini xatırlamaq lazımdır. Amerika uzun illərdir, İran əleyhinə siyasət yürüdür və bunun davamı olaraq son bir ildə iki dəfə İrana hava hücumu edib. Özü də təəssüflər olsun, hər iki hücum tərəflər arasında danışıqların getdiyi bir vaxtda baş verib.

*Müharibənin İran-Azərbaycan əlaqələrinə mənfi təsiri olmayıb*

Səh. 3

MÜSAHİB



**Vüqar Bayramov,** Milli Məclisin deputatı, iqtisadçı

■ Azərbaycan-ABŞ iqtisadi dialoqunun təşkili iki ölkə arasında iqtisadi münasibətlərin daha da dərinləşməsinə xidmət edəcək

■ Yaxın gələcəkdə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında quru nəqliyyat əlaqəsinin bərpası mümkün olacaq

■ Yaxın perspektivdə Zəngəzur dəhlizinin reallaşması imkanları daha da artıb

Səh. 2

# Məcburi köçkünlər yeni hüquqi kimlik qazanırlar

***İ**yunun 3-də Milli Məclisin Əmək və sosial siyasət, İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib. İclasın gündəliyinə Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda daxil edilib. Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, müzakirəyə təqdim olunan qanun layihəsi keçmiş məcburi köçkünlərin doğma yurdlarında dayanıqlı məskunlaşmasının hüquqi əsaslarının təkmilləşdirilməsini, işğaldan azad edilmiş ərazilərə köçürülən şəxslərin statusunun və onlara göstərilən sosial dəstək mexanizmlərinin tənzimlənməsini nəzərdə tutur.***



Komitə sədri qeyd edib ki, məcburi köçkünlər uzun illər Azərbaycan dövlətinin xüsusi qayğısı ilə əhatə olunublar. Onların sosial və digər problemlərinin həlli Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın daim diqqət mərkəzində olub. Məcburi köçkünlərin sosial problemlərinin həlli ilə əlaqədar Azərbaycan Prezidenti tərəfindən 2004-2019-cu illər ərzində 75 Fərman və Sərəncam imzalanıb, Milli Məclis tərəfindən 11 qanun qəbul edilib.

Torpaqlarımızın işğal altında olduğu dövrdə məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 121 yeni qəsəbə və yaşayış kompleksi tikilərək onların istifadəsinə verilib. 62 mindən çox məcburi köçkün ailəsinin, yəni 300 min nəfərdən çox məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Dövlət tərəfindən məcburi köçkün ailələrinə uzun illər ərzində təhsil və vergi güzəştləri, vahid aylıq müavinət, ünvanlı sosial yardım, məşğulluq proqramları, tibbi-sosial reabilitasiya və digər sosial müdafiə mexanizmləri çərçivəsində davamlı dəstək göstərilib.

Musa Quliyev bildirib ki, müzakirəyə təqdim olunan qanun layihəsi məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə yaşayış sahələrinə köçürülməsi, onların mülkiyyət hüququnun təmini və məcburi kökün statusu ilə bağlı qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Belə ki, Mənzil Məcəlləsinə ediləcək dəyişiklik nəticəsində yeni institut - İşğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşma fondu yaranacaq və bu fonda daxil olan yaşayış məntəqələri məcburi köçkünlərin köçürülməsi və bu sahələrin onların mülkiyyətinə verilməsi məqsədilə istifadə olunacaq. Eyni zamanda, "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Qanuna təklif olunan dəyişikliyə əsasən, məcburi köçkün statusunun itirilməsi halları da konkretləşdiriləcək. Yeni təklifə əsasən, şəxs yaşadığı regionda müəyyənləşdirilmiş ölçüdə başqa yaşayış yeri ilə əvvəlki yaşayış yerinin əvəzinə təmin ediləcək, bununla da dövlət tərəfindən yeni yaşayış sahəsinin verilməsi vətəndaşın mülkiyyət hüququnun tam bərpasına xidmət edəcək. Həmçinin sözügedən qanuna təklif olunan dəyişikliyə görə, şəxs dövlət tərəfindən təklif olunan həmin yaşayış yerindən imtina etdikdə məcburi köçkün statusunu itirəcək. Komitə sədri qeyd edib ki, layihədə sosial müdafiə tədbirlərinin müddətinə də aydınlıq gətirilir. Mövcud üçillik güzəşt müddətinin hesablanması şəxsin statusunu itirdiyi və ya mənzildən imtina etdiyi tarixdən müəyyən ediləcək. Bundan başqa, "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Qanunun 5-ci maddəsinə təklif olunan dəyişikliyə əsasən, məcburi köçkünlərin köçürülməsi mexanizmi də dəyişdirilir.

*"Yeni təklifə əsasən, şəxs yaşadığı regionda müəyyənləşdirilmiş ölçüdə başqa yaşayış yeri ilə əvvəlki yaşayış yerinin əvəzinə təmin ediləcək*

*Qanun qüvvəyə minənədək artıq yeni ərazilərdə mənzil almış məcburi köçkünlər də təklif olunan hüquqi imtiyazlardan yararlana biləcəklər*



Yeni qaydalara əsasən, dövlət öhdəliyi yaşayış sahəsinin təklif edilməsi ilə icra olunmuş hesab ediləcək. Bununla da həm məcburi köçkünlərin mənzil hüquqları, həm də üçüncü şəxslərin maraqları arasında balans təmin olunacaq.

■ **Komitə sədri Zahid Oruc deyib ki, Milli Məclisin müstəqillikdən keçən 35 il ərzində qəbul etdiyi qaçqınlıq və köçkünlük aktları artıq tarixə qovuşur, yeni Böyük Qayıdış qanunları yazılır.**

Səh. 2

GÜNÜN FOTOSU...



**Azərbaycan, Ermənistan və Türkiyə nazirləri arasında söhbət**

GÜNÜN SİTATI

*"Cekson-Venik məhdudiyyətlərinin aradan aldırılmasını istərdik"*



**Marko Rubio,** ABŞ Dövlət katibi

KARİKATURA



**Məni yaxşı tanımırsız**

## Məğlub ordunun dişsiz paradı

**Elxan Şahinoğlu,** siyasi şərhçi

Burada əsas hədəflərdən biri həm daxili auditoriyada siyasi fonu gücləndirmək, həm də beynəlxalq tərəfdaşlara yeni hərbi əməkdaşlıq imkanlarını nümayiş etdirməkdir.

Səh. 4

STATİSTİKA



■ **"Neft daşları" yatağından indiyədək (01.05.2025 tarixinə) 182,4 mln. ton neft hasil olunub.**

Yataqda indiyədək 14,3 mlrd. kubmetr səmt qazı hasil olunub. "Neft daşları"nda indiyədək 1 986 quyu qazılıb, onlardan 409-u fəaliyyətdədir. Dünyada ilk dənizdə sənaye neft hasilatı 1949-cu ildə burada başlanılıb. SOCAR-ın illik neft və qaz hasilatının 70 faizi buradan sahilə nəql olunur.



Səh. 7

## Keyfiyyətsiz toxum almayacağıq

PREZİDENTİN İŞ GÜNÜ

# Mərkəzi Bankın yeni binasının açılışı olub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərkəzi Bankın yeni inzibati binasının açılışında iştirak edib. Mərkəzi Bankın sədri Taleh Kazımov dövlətimizin başçısına binada yaradılmış şərait barədə məlumat verib.**

Yeni bina paytaxtın Heydər Əliyev prospektində yerləşir. Müasir şəhərsalma prinsiplərinə uyğun inşa edilmiş bina yüksək funksionallığa və qabaqcıl texnoloji göstəricilərə malikdir. Prezident İlham Əliyev milli pul nişanlarının konseptual yanaşmasının, dizayn xüsusiyyətlərinin və texnoloji inkişaf xəttinin müasir təqdimat üsulları ilə nümayiş olunduğu sərgiyə baxdı.

Bildirildi ki, sərgidə milli pul nişanlarının tarixi, inkişaf mərhələləri, dizayn və mühafizə elementləri əks olunub. Bina 35 mərtəbədən ibarətdir, burada ümumilikdə 1300 nəfərlik iş sahəsi, konfrans və mətbuat zalları, müxtəlif təlim və toplantı otaqları var.

Yeni binanın layihələndirilməsi zamanı əlçatanlıq və inklüzivlik prinsiplərinə xüsusi diqqət yetirilib, fiziki məhdudiyyətli şəxslərin binaya rahat və təhlükəsiz şəkildə girişinin, həmçinin sərbəst hərəkətinin təmin edilməsinə imkan verən infrastruktur yaradılıb.

Binada rəsmi görüş və toplantılar üçün 25 otaq nəzərdə tutulur. Otaqların hamısı zəruri avadanlıqla təchiz olunub. Yüksək keyfiyyət, təhlükəsizlik və dayanıqlı inkişaf standartlarına cavab verən binada müasir texnologiya və informasiya sistemləri də quraşdırılıb.

Burada, həmçinin əməkdaşların asudə vaxtının səmərəli təşkili məqsədilə istirahət məkanı yaradılıb, 340 nəfərlik yeməkxana da onların ixtiyarına veriləcək. Müxtəlif tədbirlərin və təqdimatların keçiriləcəyi 240 nəfərlik konfrans zalında isə hər bir şərait mövcuddur.

Gecə saatlarında binanın vizual tanınmasını təmin edən multimedia fasad sistemi müxtəlif işıq ssenarilərinin və proyeksiyaların tətbiqinə imkan verir. Fasad da daxil olmaqla, ərazinin və binanın işıqlandırılması hərəkət sensorlu LED texnologiyası ilə təchiz olunub. Bu isə öz növbəsində günün işıqlı saatlarında elektrik enerjisinə qənaət etməyə imkan verir.

# Azərbaycan enerji keçidini dəstəkləyir

***Azərbaycanın beynəlxalq iqtisadi və enerji gündəmində mühüm hadisələrin yaşandığı bir dövrdə ölkənin qlobal enerji təhlükəsizliyindəki rolu, ABŞ ilə iqtisadi əməkdaşlığın perspektivləri və regionda formalaşan yeni nəqliyyat-kommunikasiya reallıqları xüsusi diqqət mərkəzindədir. Azərbaycan-ABŞ iqtisadi dialoqunun nəticələri, Prezident İlham Əliyevin Bakı Enerji Həftəsi çərçivəsində səsləndirdiyi mesajlar, Zəngəzur dəhlizinin açılması ilə bağlı gözləntilər və dünya enerji bazarlarında baş verən dəyişikliklərin ölkə iqtisadiyyatına təsirləri günün əsas müzakirə mövzusu olaraq təhlil olunur. Müsahibimiz Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramovdur:***

## Müsahib

***- Azərbaycan-ABŞ iqtisadi dialoqunun nəticələrini və imzalanan qarşılıqlı anlaşmaları necə dəyərləndirirsiniz?***

- Bakı Enerji Forumu çərçivəsində Azərbaycan-ABŞ iqtisadi dialoqunun təşkili iki ölkə arasında iqtisadi münasibətlərin daha da dərinləşməsinə xidmət edəcək. Nəzərə alsaq ki, dialoq çərçivəsində ümumi dəyəri 8 milyard dollara yaxın olan müqavilələr imzalanıb, bu, mineral resursların işlənməsi sahəsində Azərbaycan ilə ABŞ arasında strateji əməkdaşlığın genişlənməsinə mühüm töhfə verəcək.

Bu, praktik olaraq onu göstərir ki, tərəflər sözügedən istiqamətdə sıx əməkdaşlıq etmək niyyətindədirlər. Eyni zamanda, ABŞ-nin texnologiya və innovasiyalarının Azərbaycana cəlb olunması, eləcə də bu sahəyə investisiyaların yönəldilməsi baxımından əməkdaşlığın gücləndirilməsi də razılaşmalarda öz əksini tapıb.

Şübhəsiz, bunlar Azərbaycan iqtisadiyyatının inkişafı baxımından mühüm müqavilələrdir. Bu razılaşmalar sərmayələrin cəlb olunması ilə yanaşı, qabaqcıl texnologiyaların və innovasiyaların transferinə də imkan yaradacaq. ABŞ ilə bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi olduqca vacibdir. Bu, yeni texnologiyaların tətbiqinə və bilik mübadiləsinin güclənməsinə şərait yaradır. Bu baxımdan, sözügedən müqavilələr Azərbaycan iqtisadiyyatının texnoloji baxımdan yenilənməsi və modernləşdirilməsi aspektindən də xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, onların ölkəyə daxil olan investisiyaların həcminin artmasına və Azərbaycan-ABŞ strateji əməkdaşlığının daha da möhkəmlənməsinə xidmət edəcəyi gözlənilir.

***- ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidentinə Müstəqillik Günü və Enerji forumuna göndərdiyi məktublarda iqtisadi sahədə daha çox hansı məqamlara vurğu etdi?***

- Azərbaycan Prezidentinin Bakı Enerji Forumunun açılış mərasimində çıxışı zamanı diqqət çəkdiyi məqamlardan biri də ABŞ Prezidentinin ona ünvanladığı məktub oldu. Məktubda yer alan səmimi fikirlər və əməkdaşlıqla bağlı vurğular xüsusi əhəmiyyət daşıyır. Təbii ki, bir tərəfdən, iki ölkə arasında strateji əməkdaşlıq və tərəfdaşlıq çərçivəsində mühüm sənədlər imzalanıb və onların icrası davam etdirilir. Digər tərəfdən, Azərbaycan ilə ABŞ arasında iqtisadi əlaqələrin getdikcə daha da dərinləşdiyini müşahidə edirik. Bu əməkdaşlıq özünü həm investisiya qoyuluşlarında, həm də texnologiyaların transferində göstərir.



**Vüqar Bayramov,**
Milli Məclisin deputatı, iqtisadçı

Şübhəsiz, ABŞ Prezidentinin Azərbaycan Prezidentinə ünvanladığı məktub həm ikitərəfli əlaqələrin inkişafı, həm də orada yer alan səmimi mesajlar baxımından yüksək qiymətləndirilməlidir. Bu cür yanaşma iki ölkə arasında strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə və əməkdaşlığın yeni istiqamətlər üzrə genişlənməsinə əlavə töhfə verir.

***- Prezident İlham Əliyev Enerji Forumundakı çıxışında bir sıra aktual məsələlərə toxundu. Xüsusilə dünyanın gələcəkdə enerji ilə bağlı mədən fəaliyyətinə ciddi ehtiyacının olduğunu bildirdi. Siz bu prosesi necə görürsünüz?***

- Cənab Prezidentin çıxışında qeyd olunduğu kimi, təbii ki, enerji keçidi vacibdir. Bununla yanaşı, ənənəvi enerji resurslarına tələbat yüksək olaraq qalmaqdadır. Növbəti dövrlərdə də biz ənənəvi enerji resurslarına tələbin artmasını müşahidə edəcəyik. Azərbaycan enerji keçidini dəstəkləyən ölkələr sırasındadır. Ümumiyyətlə, Azərbaycan regionda bərpa olunan enerjiyə ən çox sərmayə cəlb edən ölkələrdən biridir. Bu istiqamətdə xüsusilə xarici şirkətlərlə əməkdaşlığın güclənməsini müşahidə edirik. Praktik olaraq, son illərdə Azərbaycan bərpa olunan enerji sahəsinə 1 milyard dollardan artıq xarici sərmayə cəlb edib ki, bu da enerji keçidinin təmin olunmasına töhfə verir. Bununla yanaşı, Azərbaycanın mövcud ehtiyatları imkan verir ki, növbəti yüzilliklərdə də ölkə həm özünü, həm də tərəfdaşlarını təbii qazla təmin edə bilsin. Hazırda Azərbaycanın kəşf edilmiş təbii qaz ehtiyatları 2,5 trilyon kubmetrdən artıqdır. Bu göstərici Azərbaycanın dünyada ön sıralarda yer aldığını təsdiqləyir. Bütün bunlar göstərir ki, növbəti dövrlərdə də Azərbaycanın regional və qlobal enerji təhlükəsizliyində rolu artmaqda davam edəcək. Ölkə həm ənənəvi enerji resurslarının etibarlı təchizatçısı, həm də yaşıl enerji keçidini dəstəkləyən mühüm tərəfdaş kimi öz mövqeyini daha da gücləndirəcək.

***- Dövlət başçısının "Zəngəzur dəhlizi mütləq açılacaq" və Trampın gələcək sülh danışıqları ilə bağlı anonsu fonunda regional iqtisadi gözləntilər nədən ibarətdir?***

- Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, bütövlükdə region üçün strateji əhəmiyyət daşıyan layihələrdən biridir. Cənab Prezident dəfələrlə bildirib ki, Zəngəzur dəhlizi mütləq açılacaq və fəaliyyət göstərəcək. Zəfərdən sonrakı dövr ərzində bu istiqamətdə dövlət başçısı tərəfindən ardıcıl açıqlamalar verilib və artıq biz prosesin sürətləndiyini müşahidə edirik.

Eyni zamanda, yaxın perspektivdə Zəngəzur dəhlizinin reallaşması imkanları daha da artıb. Azərbaycan hissəsində aparılan işlər praktik olaraq tamamlanıb. Ermənistan ərazisindən keçən hissədə isə tikinti işlərinin başlanmasına və davam etdirilməsinə ehtiyac var. Digər tərəfdən, Zəngəzur dəhlizinin beynəlxalq tərəfdaşlar tərəfindən də dəstəkləndiyi qeyd olunmalıdır. Bu layihə regionda nəqliyyat-kommunikasiya əlaqələrinin genişlənməsi və iqtisadi inteqrasiyanın güclənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə beynəlxalq dəstəyin artması layihənin reallaşma imkanlarını daha da gücləndirir.

Bütün bunlar onu göstərir ki, yaxın gələcəkdə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında quru nəqliyyat əlaqəsinin bərpası mümkün olacaq. Bu isə həm ölkədaxili iqtisadi əlaqələrin genişlənməsinə, həm də regionun tranzit və logistika imkanlarının əhəmiyyətli dərəcədə artmasına xidmət edəcək.

*"Azərbaycan-ABŞ iqtisadi dialoqunun təşkili iki ölkə arasında iqtisadi münasibətlərin daha da dərinləşməsinə xidmət edəcək*

*Yaxın gələcəkdə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında quru nəqliyyat əlaqəsinin bərpası mümkün olacaq*

***- Azərbaycanın enerji və logistik mərkəz olaraq gələcək mövqeyini, bu istiqamətdə daha hansı addımlar atılmalı olduğunu şərh edərdiniz...***

- Azərbaycanın coğrafi mövqeyi ilə yanaşı, geosiyasi və geoiqtisadi mövqeyi də güclənməkdədir. Azərbaycan artıq dünyanın 16 ölkəsinə təbii qaz ixrac edir və onlardan 12-si Avropa məkanında yerləşən ölkələrdir. Bütün bunlar həm Azərbaycanın beynəlxalq nüfuzunun, həm də geosiyasi mövqeyinin güclənməsinin göstəricisidir.

Cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan regionda orta güc dövlətinə çevrilib və artıq yalnız regionun deyil, həm də Yaxın Şərqin enerji təhlükəsizliyinə töhfə verir. Azərbaycan qazı artıq Suriya bazarına çıxış əldə edib və Suriya vasitəsilə digər Yaxın Şərq ölkələrinə də nəql imkanları formalaşa bilər. Bütün bunlar bir daha göstərir ki, Azərbaycanın həyata keçirdiyi enerji siyasəti ölkənin geosiyasi mövqeyinin güclənməsinə xidmət edib. Cənab Prezidentin rəhbərliyi ilə Azərbaycanın mövqeyinin daha da möhkəmləndiyini və regionda formalaşan yeni düzəndə ölkəmizin xüsusi rol oynadığını müşahidə edirik.

Bütün bunlar deməyə əsas verir ki, növbəti dövrlərdə də Azərbaycanın geosiyasi mövqeyi daha da möhkəmlənəcək, beynəlxalq nüfuzu artacaq və ölkəmizin regional və qlobal proseslərə təsir imkanları genişlənəcək.

***✍ Tahirə Qafarlı***

# Üçtərəfli əməkdaşlıq bizim üçün xüsusi əhəmiyyət kəsb edir

**Gürcüstan tranzit funksiyasının inkişafına, bağlantı baxımından imkanlarımızın təkmilləşdirilməsinə xüsusi əhəmiyyət verir və bu baxımdan Gürcüstan, Azərbaycan və Türkiyə arasında əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir.**

Bu sözləri jurnalistlərə açıqlamasında Gürcüstanın Baş naziri İrakli Kobaxidze bildirib. Baş nazirin sözlərinə görə, yeni Bakı-Tbilisi-Qars dəmir yolu xətti tarixi bir layihədir və Gürcüstan, Azərbaycan və Türkiyə arasında uğurlu əməkdaşlığın ən yaxşı ifadəsidir. "Bu layihə həm də dost ölkələrimizlə nə qədər sıx əməkdaşlıq etdiyimizin ən yaxşı ifadəsidir. Bu əməkdaşlıq daha da inkişaf etdiriləcək", - deyə Kobaxidze bildirib.



HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "Zaman" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -1500

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Məcburi köçkünlər yeni hüquqi kimlik qazanırlar

◂ əvvəli 1-ci səhifədə

Parlament həyatında müstəsna yer tutan hazırkı akt gələcəkdə millətimizin və dövlətimizin tarixində şanlı səhifəyə çevriləcək. Çünki Böyük Qayıdış qanunları məğlubiyyət, işğal və köçkünlük dövrünün bitdiyini, qalib Yüz İlin başlandığını göstərən əsas milli ideyadır. O bildirib ki, Mənzil Məcəlləsinə edilən dəyişikliklə yaradılacaq "İşğaldan Azad Edilmiş Ərazilərdə Daimi Məskunlaşdırma Fondu"na daxil olan yaşayış sahələri vətəndaşlara artıq icarə müqaviləsi əsasında deyil, mülkiyyət hüququ əsasında veriləcək. "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Qanuna edilən dəyişikliklə şəxs işğaldan azad edilən ərazidə əvvəlki yaşayış yerinin əvəzinə yeni yaşayış sahəsi aldıqda və ya imkandan imtina etdikdə statusun itirilməsi hüquqi baxımdan dəqiq müəyyən olunur.

Qanun qüvvəyə minənədək artıq yeni ərazilərdə mənzil almış məcburi köçkünlər də təklif olunan hüquqi imtiyazlardan yararlana biləcəklər. Yurd yaddaşını, sosial müdafiəni, iqtisadi inkişafı və milli bərpanı vahid hüquqi çərçivədə birləşdirir.

Komitə sədri qeyd edib ki, otuz il ərzində dünyanın müxtəlif tribunalarından "qaçqınlar", "məcburi köçkünlər", "didərginlər" kimi təqdim olunan Azərbaycan vətəndaşları bu gündən etibarən yeni hüquqi kimlik qazanırlar. Onlar, artıq yardım alan insanlar deyil, öz torpağının, evinin və gələcəyinin sahibi olan qalib xalqın nümayəndələridir. Sonra iclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxış edərək, qanun layihəsinə əsasən məcburi köçkünlərin konstitusion mülkiyyət hüququnun bərpa olunduğunu, onun icra mexanizminin yaradıldığını söyləyib. O, mülkiyyət hüququnun bərpasını insan hüquqlarının təntənəsi kimi dəyərləndirib. Layihənin konseptual, hüquqi, vətəndaşların sosial müdafiəsi, insan hüquqlarının təmin edilməsi baxımından əhəmiyyətli olduğunu deyib, rəhbərlik etdiyi komitənin sənədi dəstəklədiyini bildirib. "Bu gün biz fəxarət hissi ilə qeyd edə bilərik ki, Böyük Qayıdış uğurla icra olunmaqdadır. Qarabağda və Şərqi Zəngəzurda sözlə ifadə oluna bilməyəcək tərzdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılır". Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov deyib. O bildirib ki, torpaqlarımız minalardan və partlamamış hərbi sursatlardan təmizlənir, yeni infrastruktur yaradılır və keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışı üçün Azərbaycan dövləti tərəfindən hər cür şərait yaradılıb. Burada qeyd olunduğu kimi, artıq 10 şəhər, 3 qəsəbə və 31 kənd olmaqla 44 yaşayış məntəqəsində Böyük Qayıdışa start verilib və 85 mindən çox soydaşımız artıq Qarabağda və Şərqi Zəngəzurda məskunlaşıb, təhsil alır, müxtəlif sahələrdə fəaliyyət göstərir.



Sədr müavini qeyd edib ki, bu gün təqdim olunan Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ölkəmizin hazırkı tarixi mərhələsində qarşımızda duran ən mühüm vəzifənin, Prezident İlham Əliyevin rəhbərliyi ilə icra olunan dövlət siyasətinin və ölkəmizin uzunmüddətli inkişaf strategiyasının əsas prioritetlərindən olan Böyük Qayıdışın hüquqi bazasını möhkəmləndirmək məqsədi daşıyır. Bu dəyişikliklər birbaşa işğaldan azad edilmiş ərazilərdə məcburi köçkünlərin mülkiyyət hüquqlarının təmin olunmasına və onların daimi məskunlaşma prosesinin sürətləndirilməsinə xidmət edir.

O bildirib ki, dünya praktikasında öz unikallığı ilə səciyyələnən Böyük Qayıdış istər miqyasına, istərsə də işğal dövründə məruz qalmış dağıntıların həcminə görə, 2030-cu ilədək ölkəmizdə sosial-iqtisadi inkişafa dair 5 milli prioritetdən biridir.

"Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi sosial baxımdan çox önəmlidir. Bu, həm də Azərbaycan vətəndaşının konstitusion və mülkiyyət hüququnun ən ali səviyyədə bərqərar və bərpa olunması deməkdir». Bunu Milli Məclisin Əmək və sosial siyasət, İnsan hüquqları və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında deputat Azay Quliyev deyib.

"Yenə də dövlətimizin çox ağıllı və müdrik bir yanaşmasını görürük. Sosial tədbirlər həmin məcburi köçkünlük statusunun itirilməsi günündən sonra üç il müddətində davam edir. Bu, ondan xəbər verir ki, dövlətimiz yenə də vətəndaşlarına qucaq açır, sahib durur və qarşıda olan üç il müddətində onların ən müxtəlif sahədə sosial qayğı, məşğulluq tədbirləri ilə bərabər, bu statusu saxlayır", - deyə o əlavə edib.

**Deputat Vüqar Bayramov deyib ki, Vətən müharibəsində qazanılan Zəfərdən sonra keçmiş məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi üçün dövlət büdcəsindən 1 milyard 654 milyon manat ayrılıb.** Belə ki, bu istiqamətə dövlət büdcəsindən 2021-ci ildə 354.4 milyon manat, 2022-ci ildə 364,9 milyon manat , 2023-cü ildə 353.9 milyon manat, 2024-cü ildə 329,2 milyon manat, 2025-ci ildə isə 252 milyon manat xərclənib. 2026-cı ildə isə daha 280 milyon manatın ayrılması həyata keçirilməkdədir.

O bildirib ki, yalnız Dövlət Neft Fondundan qaçqın və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması və məskunlaşdırılması üçün 2 milyard 702 milyon manat vəsait ayrılıb. Bu Neft Fondunun büdcə transferlərindən kənar ayırdığı 13 maliyyələşmə istiqaməti üzrə ən böyük xərc maddəsidir. Deputat qeyd edib ki, bütün bunlarla yanaşı, dövlət büdcəsindən işğaldan azad olunan ərazilərimizin bərpasına 2026-cı il öhdəliyi nəzərə alınmaqla 25 milyard manatdan çox vəsait ayrılır. Vətən müharibəsindən sonra keçən qısa müddətdə isə işğaldan azad olunan ərazilərimizdə 85 mindən çox vətəndaşımızın məskunlaşması, işləməsi və təhsil alması isə Azərbaycanın gücünü bir daha təsdiq edir.

İclasın yekununda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***✍ Tahirə***

# Tehrandakı reaktoru ABŞ tikib

***Xeyli vaxtdır, ABŞ-İsrail cütlüyü ilə İran arasında nisbi atəşkəs razılaşması mövcud olsa da, arasıra tərəflərin bir-birinə hava hücumu etdiyini eşidirik; məsələn, elə dünən xəbər yayıldı ki, İran Küveyt və Bəhreyn ərazilərinə zərbələr endirib. Amerika da eynilə İranı bombalayır. Üstəlik, hansısa məsələlərə görə çıxmaza girən danışıqların aqibəti necə olacaq? Ölkədə ictimai-sosial vəziyyət necədir? Bütün bu məsələlərə aydınlıq gətirmək üçün İranın ölkəmizdəki səfiri Müctəba Dəmirçilu ilə söhbətləşdik.***



**Müctəba Dəmirçilu,**
İranın ölkəmizdəki səfiri

## Müsahib

- Bu məsələdən söz açarkən problemin keçmişini xatırlamaq lazımdır. Amerika uzun illərdir, İran əleyhinə siyasət yürüdür və bunun davamı olaraq son bir ildə iki dəfə İrana hava hücumu edib. Özü də təəssüflər olsun, hər iki hücum tərəflər arasında danışıqların getdiyi bir vaxtda baş verib. Sonuncu hava hücumundan sonra özləri atəşkəs istədilər və İran da buna bir neçə şərt qoymaqla razılaşdı. İran müzakirələrə şərt olaraq Amerikaya 10 maddədən ibarət tələblərini təqdim etdi. Bura atəşkəsin Livanı da əhatə etməsi, İranın bloklanmış vəsaitinin bir hissəsinin azad edilməsi və sair daxildir. Nəticə olaraq artıq 39 gündür atəşkəs var və danışıqlar davam edir.

Amma görürsünüz, özləri vaxtaşırı atəşkəsi pozurlar. Onlar düşünürdülər ki, İranın əleyhinə apardıqları təzyiq siyasətini davam etdirə biləcəklər. Əvvəl müharibə dövründə diqtələrini İrana hərbi güc yolu ilə qəbul etdirmək istədilər, gördülər ki, bacarmırlar, indi buna müzakirə masasında nail olmaq istəyirlər. Fikrimcə, danışıqlarda ortaq məxrəcə gələ bilməməyin başlıca səbəbi qarşı tərəfin məhz bu mövqeyidir və onu dəyişməlidirlər. Yalnız beynəlxalq hüquq əsasında razılaşma yolu ilə məsələ həll oluna bilər.

***- Atəşkəs davam etsə də, elə dünən xəbər yayıldı ki, İran Küveytə raket hücumu edib. Niyə İsrailə yox, məhz Küveytə? Və yaxud da BƏƏ ərazisinə, Bəhreynə? Bu ölkələrin ərazisindən İrana hər hansı hava hücumu edilir?***

- Bilirsiniz, hamı gözləyirdi ki, atəşkəs var, daha müharibə olmayacaq, amma beynəlxalq hüquqa əsasən, blokadanın özü də müharibə aktı sayılır. Amerika İrana qarşı blokada siyasətini davam etdirir. Dünən gecə İran limanlarına səmt almış yük gəmisi Amerikanın hücumuna məruz qalaraq



böyük miqyasda zərər görüb. İş təkcə bununla bitmir, Amerika İran limanlarına hücum edir, açıq sularda üzən bir neçə İran gəmisini ələ keçirib, hətta gəmidələrki heyət üzvləri ciddi problemlərlə üzləşiblər. Təbii ki, İran əvvəllər də olduğu kimi, beynəlxalq hüquqa söykənərək özünü müdafiə edib və edəcək. Hansı məntəqələrdən ki, İrana qarşı hava hücumları olur, məhz həmin yerlər İran ordusu tərəfindən hədəf götürülür, o cümlədən Bəhreyn və Küveyt ərazilərindəki bazalara zərbə endirilib.

Bilirsiniz ki, Amerikanın 5-ci donanmasının bazası Bəhreyndə yerləşir. Amerika İrana qarşı blokadada istifadə etdiyi raket və dronları məhz bu bazalardan təmin edir. Ümumiyyətlə, körfəzdəki kiçik dövlətlər öz ərazilərində fərqli səbəblərdən xarici ölkələrin, o cümlədən, ABŞ-nin hərbi baza qurmasına icazə verib. Çox vaxt bu ölkələr ərazilərindəki hərbi bazalara nəzarət etmək imkanına malik də deyillər. Hətta onların məlumatı da yoxdur ki, həmin bazalarda nə var, nə edirlər.

***- Amerika tələb edir ki, İran nüvə proqramından imtina etməlidir və indiyədək zənginləşdirilmiş uran ehtiyatı İrandan çıxarılmalıdır. Bir ara uranın Rusiyaya göndəriləcəyinə dair xəbərlər yayıldı. Dünən Qazaxıstan prezidenti də MAQATE rəhbəri ilə görüşdə İrandan çıxarılacaq zənginləşdirilmiş uranı saxlaya biləcəyini qeyd edib. Amerikanın bitib-tükənməyən bu bəhanəlinə qarşı siz nə deyərdiniz?***

- Amerika hər zaman bəhanə axtarır ki, onun əsasında təzyiq siyasətini davam etdirsin. Bir gün nüvə proqramını, başqa bir gün insan hüquqlarını, başqa bir gün regionda gedən prosesləri bəhanə gətirir.

2001-ci ildən başlayaraq bildirirlər ki, İran iki həftədən sonra nüvə bombası düzəldəcək, amma 25 il keçib, hələ o iki həftə çatmayıb.

Onlar son iki ən güclü hava zərbələri ilə İranın nüvə infrastrukturunun tamamilə məhv edildiyini iddia edirdilər. Sonra bəyan etdilər ki, bombardman nəticəsində İranın yeraltı zənginləşdirilmiş uran ehtiyatları uçqunlar altında qalaraq əlçatmaz hala düşüb və İran ondan istifadə edə bilməyəcək. Bu halda yenidən "Zənginləşdirilmiş uran İran ərazisindən çıxarılmalıdır" demək, həqiqətən də Amerikanın bəhanə axtardığını isbatlayır.

> *"Müharibənin İran-Azərbaycan əlaqələrinə mənfi təsiri olmayıb*

Biz hazırıq, nüvə proqramı məsələsində danışıqlar aparmağa, burada heç bir gizli məsələ yoxdur. Onlar deyir ki, İran nüvə silahı əldə etməyə çalışır, İran da açıq şəkildə bildirir ki, belə bir məqsədi olmayıb və indi də yoxdur. Eyni zamanda, İran bildirir ki, nüvə sahəsində beynəlxalq nəzarət strukturları ilə əməkdaşlıq etməyə hazırdır. O cümlədən, Beynəlxalq Atom Enerjisi Agentliyi də dəfələrlə bəyan edib ki, yoxlayıblar, İran ərazisində hər hansı nüvə silahı hazırlamaq cəhdləri aşkar edilməyib.

Zənginləşdirilmiş uranın İran ərazisindən çıxarılması inadına gəldikdə, Tehran dəfələrlə qəti şəkildə bildirib ki, xeyr, uran ölkədə qalacaq. Yox, əgər bundan narahatdırlarsa, İran beynəlxalq nəzarətçilərlə əməkdaşlığa hazırdırlar, gəlib İran ərazisində bu prosesə nəzarət edə bilərlər.

***- Nüvə proqramının enerji məqsədli olduğu bildirilir...***

- Bəli. Tehranın mərkəzində bir reaktor var ki, o nüvə yanacağı ilə çalışır və əsasən tibbi məqsədlə istifadə edilir. Ən maraqlısı odur ki, 60 ildən çox tarixi olan bu reaktoru elə amerikalılar özü tikib. İran niyə uranı zənginləşdirir, elə həmin reaktoru yanacaqla təmin etmək üçün, çünki xaricdən nüvə yanacağı verilmədi, məburən bu addımı atdıq.

***- Ölkədaxili ictimai-sosial vəziyyət necədir? Müharibə şəraitində və sanksiyalar altında insanların dolanışığı necədir, qida məhsulların qıtlığı hiss olunurmu?***

- Müharibə dövründə də İranda hər hansı qıtlıq, ərzaq çatışmazlığı yaşanmadı və indi də yoxdur. İran böyük imkanlara malik böyük dövlətdir. Bu da sirr deyil ki, müharibə zamanı hər bir ölkə çətinliklərlə qarşılaşır. Elə indi də görürsünüz ki, blokadalar idxal-ixrac prosesinin rahat həyata keçirilməsinə mane olur. Eyni zamanda, müharibədən sonra dünyada yanacaqdan tutmuş ərzaq və digər məhsulların qiyməti artıb. Əlbəttə ki, bu, İran daxilində də özünü aydın göstərir. Ümumi yanaşsaq, şükürlər olsun, İranda bu sahədə elə ciddi çətinlik hiss olunmur.

***- Elə məhsullar, məsələn, bəzi dərman preparatları xaricdən idxal olunur...***

- Təbii ki, bu məsələdə bəzən problemlərlə üzləşirik. İranın bir çox hava limanı Amerikanın hava hücumları zamanı ciddi ziyan görüb. Təbriz hava limanı indiyədək fəaliyyətini bərpa edə bilməyib. Üstəlik, bir çox xarici şirkət hələ də aviareysləri bərpa etməyib, bu da əsasən hava nəqliyyatı ilə daşınan dərman preparatlarının idxalında çətinlik yaradır.

İran dərmana olan ehtiyacının 96,7 faizini özü istehsal edir. Çox təəssüflər olsun, Amerikanın hava hücumları zamanı dərman zavodlarının bir hissəsi bombalanıb.

***- Xaricdən humanitar yardım göndərilirmi İrana, yoxsa Amerika buna da imkan vermir? Məncə, humanitar yardımlaşma istənilən hərbi şəraitdə və ya təbii fəlakətlər zamanı çox vacibdir...***

- Humanitar yardım maddi deyil, əsasən, mənəvi dəstəyi simvolizə edir. Dünyanın bir çox ölkəsindən, o cümlədən Azərbaycandan yardımlar almışıq və buna görə də hamısına təşəkkür edirik. Bu dəstək bizim üçün çox dəyərlidir.

Düzdür, 90 milyonluq bir ölkə üçün göndərilən yardımın həcmi çox da nəzərə çarpmır, amma yenə deyirəm: onun mənəvi dəyəri olduqca yüksəkdir. Ən son ötən günlərdə Qazaxıstandan humanitar yük daşıyan bir Qatar İrana göndərildi. Ümumi yanaşsaq, yardım göndərilməsi davam etsə də, son vaxtlar xeyli azalıb.

***- Hansı ölkələrdən yardım almısınız?***

- Daha çox region ölkələrindən. Azərbaycan, Rusiya, Pakistan, Hindistan, Çin, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Oman, hətta bəzi Avropa ölkələrindən yardımlar gəlib. Tacikistan müqayisə üçün, çox böyük yardım göndərib. Eləcə də Avropada fəaliyyət göstərən qeyri hökumət təşkilatları və qitədə yaşayan iranlılar da İrana yardım göstərib.

***- İndiki hərbi şəraitdə İranla Azərbaycan arasında əlaqələr necə davam etdirilir? Yəni iqtisadi-ticari münasibətlər əvvəlki kimi davamlıdırmı, icrada olan layihələrin icrası davam edirmi və sair?***

- Deyərdim ki, müharibənin İran-Azərbaycan ikitərəfli əlaqələrinə mənfi təsiri olmayıb. Həm nəqliyyat, həm də ticarət sahəsində əlaqələr müntəzəm şəkildə davam edir və hətta gözləyirik ki, bu müstəvidə artım da olacaq. Bizim müştərək layihələrimiz vardı, məsələn, nəqliyyat sahəsində, işlər öz axarında davam edir. Araz çayı üzərində körpünün tikintisi başa çatıb, sadəcə orada sərhəd-gömrük məntəqəsi qurulmalıdır ki, bu işlərin də yaxın vaxtlarda həll olunacağına inanıram.

***- Son olaraq, indiki müharibə şəraiti sizcə nə qədər davam edəcək, vəziyyət nə vaxt normal dönəcək?***

- Səmimi desək, Amerika hakimiyyətinin davranışı bir az mürəkkəbdir, nə dedikləri, nə etdikləri məlum deyil - sözlərinin üstündə durmurlar və dünyanın gözünə baxaraq yalan danışırlar. Düşünürlər ki, güclüdürlər, nə istəsələr, dünya buna baş əyməlidir. Bir gün İrana girmək istəyirlər, alınmayanda, deyirlər Kubaya girəcəyik; Qrenlandiyanı istəyirlər, sonra deyirlər, İslandiya bizimdir və sair. Təəssüf ki, bu fikirlərlə İranın üstünə gəldilər, nəticədə, ölkəmizə və xalqımıza çox böyük ziyan vurdular, insanlar həlak oldu. Bir məsəl var: bir dəli quyuya daş atdı, min ağıllı onu çıxara bilmədi. Bugünkü vəziyyət eyni bu məsəldəki kimidir.

***✍ Vüsal Tağıbəyli***

## Aktual

***Ermənistanla Azərbaycan arasında postmünaqişə dövründə regionda yaranmış yeni geosiyasi reallıq artıq beynəlxalq aktorların mövqeyinə də təsir göstərir.***



# Fransanı dəyişdirən səbəb

Uzun müddət Cənubi Qafqaz siyasətində fərqli xətt sərgiləyən Emmanuel Makron administrasiyasının son aylardakı ritorikası da diqqətlə izlənilir. Xüsusilə Azərbaycan öz ərazi bütövlüyünü tam bərpa etdikdən sonra regionda formalaşan siyasi və təhlükəsizlik balansı Avropa paytaxtlarında, o cümlədən Parisdə əvvəlki yanaşmalara müəyyən korrektələr edilməsinə səbəb olub. Ekspertlər hesab edir ki, Fransa Azərbaycanın yaratdığı yeni reallığı və regionda artan siyasi çəkisini nəzərə almağa məcburdur. Bu isə Bakı-Paris münasibətlərinin gələcək istiqaməti ilə bağlı yeni suallar yaradır.

**■ Siyasi şərhçi Məhəmməd Əsədullazadə Hafta.az-a açıqlamasında bildirib ki, Fransanın yanaşmasında müşahidə olunan dəyişiklik, ilk növbədə, regiondakı yeni siyasi balansla bağlıdır.**

M.Əsədullazadə qeyd edib ki, Azərbaycan həm hərbi, həm də diplomatik müstəvidə regionda yeni reallıq formalaşdırıb və bu reallıq artıq beynəlxalq güclər tərəfindən nəzərə alınır: "Fransa bir müddət Ermənistan üzərindən Cənubi Qafqaz siyasətinə təsir göstərməyə çalışdı. Son mərhələdə isə görünür ki, Bakı ilə münasibətləri tam gərgin saxlamağın Paris üçün siyasi nəticəsi yoxdur.

Azərbaycan regionun əsas siyasi və iqtisadi aktorlarından biridir. Enerji təhlükəsizliyi, Orta Dəhliz və Avropa ilə əməkdaşlıq məsələləri fonunda Fransanın da daha praqmatik xəttə keçmək ehtimalı artır. Bu, o demək deyil ki, bütün fikir ayrılıqları aradan qalxacaq. Münasibətlərdə emosional ritorikadan daha çox qarşılıqlı maraqlara əsaslanan yeni mərhələnin başlanması mümkündür".

> *"Fransanın daha praqmatik xəttə keçmək ehtimalı artır*

> *Fransanın mövqeyində müəyyən korrektələr qaçılmaz görünür*

**■ Politoloq Tofiq Abbasov Hafta.az-a bldirib ki, Fransa, artıq regionda proseslərin Azərbaycanın iştirakı olmadan formalaşmasının mümkün olmadığını qəbul edir.**

Politoloq vurğulayıb ki, Azərbaycan son illərdə təkcə hərbi və siyasi baxımdan deyil, geostrateji baxımdan da ciddi güc mərkəzinə çevrilib: "Avropanın enerji təhlükəsizliyi, nəqliyyat marşrutları və Cənubi Qafqazda sabitlik məsələsində Bakının rolu artıb.

Bu fonda Fransanın da mövqeyində müəyyən korrektələr qaçılmaz görünür. Paris əvvəlki sərt siyasi ritorikanı davam etdirməklə regionda təsir imkanlarını zəiflətmiş oldu. Ona görə də bundansonrakı mərhələdə daha balanslı münasibətlərə keçid ehtimalı yüksəkdir. Əsas məsələ odur ki, Fransa regionla bağlı siyasətində reallığı nə qədər düzgün qiymətləndirəcək. Əgər bu yanaşma davamlı olsa, gələcəkdə Bakı ilə Paris arasında həm siyasi dialoq, həm də iqtisadi əməkdaşlıq üçün yeni imkanlar yarana bilər".

***✍ Tahirə***

# Rəqəmsal Ticarət Qovşağı informasiya sistemi yaradılır



**Azərbaycanda Rəqəmsal Ticarət Qovşağı informasiya sistemi yaradılır.**

Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Nəqliyyat siyasəti şöbəsinin beynəlxalq nəqliyyat əməliyyatları sektorunun müdiri Aytən Turabova 2-ci Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika Forumunda deyib. "Dörd moduldan ibarət olacaq sistemin 2-si artıq fəaliyyətdədir, digər 2 modul isə işlənilmə mərhələsindədir.

Sistem "vahid pəncərə" prinsipinə uyğun olaraq nəqliyyat prosedurları zamanı bürokratiyanı azaltmağa, təkrarlanmanı aradan qaldırmağa və malların ticarət hərəkətini asanlaşdırmağa imkan verəcək. Sistem hazır olduqdan sonra onu dəhliz boyu mövcud platformalara inteqrasiya etmək mümkün olacaq ki, bu da bizə ərazimizdən keçən nəqliyyat dəhlizlərinin səmərəliliyini artırmağa imkanı verəcək", - deyə A.Turabova qeyd edib.

# Narkoloji qeydiyyat barədə arayışı "ASAN xidmət" verəcək

**"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.2.3-cü yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə narkotik istifadəçisi kimi qeydiyyatda olub-olmaması barədə arayışların verilməsi prosesinin sadələşdirilməsi məqsədilə müvafiq xidmət "ASAN xidmət" tərəfindən həyata keçiriləcək.**




Bununla bağlı Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Fərman imzalayıb. Dəyişikliyə əsasən, Fərmanın 1-ci hissəsinin 5.24.4-cü yarımbəndindən sonra yeni 5.25-ci bənd əlavə edilib. Yeni müddəaya uyğun olaraq, şəxsin dövlət narkoloji tibb müəssisələrində qeydiyyatda olmasına dair arayışın verilməsi xidməti "ASAN xidmət" tərəfindən göstəriləcək.

Qeyd olunan dəyişiklik vətəndaşlara göstərilən xidmətin daha operativ şəkildə həyata keçirilməsinə və müraciət prosedurlarının sadələşdirilməsinə ikman verir.

# Doktorantura təhsilində yeni mərhələ

## Layihə

***Azərbaycanda doktorantura təhsilində yeni mərhələ başlayır. Bu ildən etibarən ilk dəfə olaraq SABAH proqramı çərçivəsində fəlsəfə doktoru hazırlığına start veriləcək. Elm və Təhsil Nazirliyinin məlumatına görə, beynəlxalq təcrübə əsasında formalaşdırılan yeni model doktorantura təhsilinin keyfiyyətinin yüksəldilməsinə, elmi tədqiqatların gücləndirilməsinə və ölkədə yüksəkixtisaslı elmi kadrların hazırlanmasına xidmət edəcək. Yeni təşəbbüs çərçivəsində tədris əsaslı doktorantura proqramları ilk dəfə pilot layihə kimi tətbiq olunacaq.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

İlkin mərhələdə Azərbaycan Respublikasının Təhsil İnstitutu, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Bakı Ali Neft Məktəbi olmaqla dörd ali təhsil müəssisəsində proqram həyata keçiriləcək. Doktorantlar riyaziyyat, fizika, kimya, biologiya, yer elmləri, texniki elmlər və pedaqogika olmaqla yeddi elm sahəsi üzrə qəbul ediləcəklər. Proqram çərçivəsində ümumilikdə 80 doktorantın hazırlanması nəzərdə tutulur. Təhsil müddəti minimum dörd il olacaq. İlk iki il ərzində doktorantlar həm tədris, həm də elmi tədqiqat fəaliyyəti ilə məşğul olacaqlar. Sonrakı iki il isə tamamilə elmi araşdırmalara həsr ediləcək. Bu model dünyanın bir çox inkişaf etmiş ölkələrində tətbiq olunan doktorantura sisteminə uyğunlaşdırılıb və gənc tədqiqatçıların həm nəzəri biliklərinin, həm də praktiki araşdırma bacarıqlarının inkişafına imkan yaradacaq.

Yeni proqramın diqqət çəkən məqamlarından biri də maliyyə dəstəyi ilə bağlıdır. Doktoranturaya qəbul olunan şəxslər dövlət tərəfindən verilən doktorantura təqaüdü ilə yanaşı, əlavə olaraq yüksək məbləğdə SABAH təqaüdü də alacaqlar. Bu, elmi fəaliyyətlə məşğul olmaq istəyən gənclərin sosial təminatının gücləndirilməsi baxımından mühüm addım hesab olunur.

Bununla yanaşı, doktorantlara təhsil aldıqları müəssisələrdə elmi-pedaqoji istiqamətdə rəsmi əmək fəaliyyəti ilə məşğul olmaq imkanı yaradılacaq. Beləliklə, onlar həm təhsil alacaq, həm elmi tədqiqat aparacaq, həm də akademik fəaliyyətə cəlb olunacaqlar. Mütəxəssislər hesab edirlər ki, bu yanaşma gələcəkdə universitetlər və elmi-tədqiqat institutları üçün peşəkar elmi-pedaqoji kadr ehtiyatının formalaşmasına müsbət təsir göstərəcək.

Ümumilikdə isə ölkədə doktorantura təhsilinə marağın artırılması istiqamətində mühüm addımlar atılır. Nazirlər Kabinetinin təsdiq etdiyi qəbul planına əsasən, 2026-cı il üçün respublika üzrə fəlsəfə doktoru proqramına 1388 yer ayrılıb. Bu göstərici ötən illə müqayisədə 213 yer və ya 18 faiz çoxdur. Qəbulun 90 müəssisə üzrə, təxminən 300 ixtisas istiqamətində aparılması planlaşdırılır.

Ayrılan yerlərin 65 faizi ali təhsil müəssisələrinin, 35 faizi isə elmi-tədqiqat müəssisələrinin payına düşür. Bu da həm universitetlərin, həm də elmi institutların tədqiqat potensialının gücləndirilməsinə yönəlmiş siyasətin tərkib hissəsi kimi qiymətləndirilir.

Son illərdə doktorantura təhsilində aparılan islahatlar da diqqət çəkir. Artıq iki ildir ki, doktoranturaya qəbul yalnız fəlsəfə doktoru proqramı üzrə həyata keçirilir. Eyni zamanda ali təhsil müəssisələrində təhsil alan bütün doktorantlar dövlət sifarişi əsasında, yəni ödənişsiz təhsil alırlar. Növbəti ildə də doktoranturaya qəbul olunacaq şəxslərin yalnız dövlət sifarişi əsasında təhsil alacağı proqnozlaşdırılır.

Ekspertlərin fikrincə, doktorantura üzrə qəbul yerlərinin artırılması, yeni maliyyə mexanizmlərinin tətbiqi və SABAH proqramı çərçivəsində beynəlxalq standartlara uyğun modelin yaradılması ölkədə elmin inkişafına mühüm təkan verə bilər. Bu addımlar Azərbaycanın elmi potensialının gücləndirilməsinə, gənclərin tədqiqat fəaliyyətinə marağının artırılmasına və beynəlxalq elmi mühitə inteqrasiyanın sürətlənməsinə xidmət edəcək.

Qeyd edək ki, doktorantura səviyyəsinə qəbul üçün sənədlərin qəbulu elektron qaydada portal.edu.az üzərindən aparılır. Müraciətlərin qəbulu iyunun 9-da saat 18:00-da başa çatacaq. Doktorantura təhsilini davam etdirmək istəyən namizədlər müəyyən edilmiş müddət ərzində sənədlərini təqdim etməlidirlər.

■ **Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri İlqar Orucov bizimlə söhbətində bildirib ki, SABAH çərçivəsində doktorantura təhsilinin tətbiqinə başlanılması Azərbaycanın elm və ali təhsil sistemində yeni mərhələnin əsasını qoyur. Onun sözlərinə görə, bu təşəbbüs ölkənin elmi mühitində uzun illərdir gözlənilən struktur dəyişikliklərinə verilən ən mühüm cavablardan biridir.**

Ekspert deyib ki, Azərbaycanda ilk dəfə olaraq SABAH proqramı çərçivəsində doktorantura səviyyəsində tədrisin təşkili elmi fəaliyyətin keyfiyyətinin yüksəldilməsi, beynəlxalq standartlara uyğun elmi kadrların hazırlanması və ali təhsil ilə elmi tədqiqat mühitinin daha sıx inteqrasiyası baxımından xüsusi əhəmiyyət daşıyır. "Bu, kifayət qədər mütərəqqi və yenilikçi addımdır. Hesab edirəm ki, SABAH doktorantura proqramı ölkənin elmi mühitində real transformasiya prosesinin başlanğıcını qoyacaq. Burada məqsəd yalnız yeni doktorantlar hazırlamaq deyil, həm də beynəlxalq rəqabətə davamlı, müasir elmi düşüncəyə malik gənc tədqiqatçılar nəslinin formalaşdırılmasıdır", - deyə ekspert vurğulayıb.

Onun sözlərinə görə, layihənin ilk mərhələdə dörd qabaqcıl ali təhsil müəssisəsində və fundamental elm sahələri üzrə tətbiq olunması proqramın strateji yanaşma əsasında hazırlandığını göstərir. Bu isə gələcəkdə modelin daha geniş miqyasda tətbiqi üçün möhkəm zəmin yaradır. İ.Orucov qeyd edib ki, yeni doktorantura modeli ənənəvi sistemdən ciddi şəkildə fərqlənir. Onun fikrincə, uzun illər Azərbaycanda tətbiq olunan doktorantura sistemi mahiyyət etibarilə sovet dövründən qalan aspirantura modelinin davamı olub.

Yeni SABAH modeli isə Avropa ali təhsil məkanının prinsiplərinə əsaslanır və doktorantların yalnız tədqiqatçı kimi deyil, həm də müasir akademik bacarıqlara malik mütəxəssis kimi formalaşmasını nəzərdə tutur. Onun sözlərinə görə, yeni modeldə kredit sistemi tətbiq olunur, strukturlaşdırılmış fənlər tədris edilir və doktorantların inkişafı mərhələli şəkildə qiymətləndirilir. Halbuki əvvəlki sistemdə əsas diqqət dissertasiya işinin hazırlanmasına yönəlirdi və metodoloji hazırlıq kifayət qədər zəif idi.

Ekspert hesab edir ki, Azərbaycanda elmi fəaliyyətin qarşısında duran əsas problemlərdən biri məhz akademik yazı və tədqiqat metodologiyası sahəsindəki boşluqlardır. "Bu gün bir çox gənc tədqiqatçı, hətta müəyyən təcrübəyə malik alimlər belə beynəlxalq standartlara uyğun elmi məqalə yazmaqda, araşdırma metodologiyasını düzgün qurmaqda çətinlik çəkirlər. Yeni proqram çərçivəsində akademik yazı, elmi etika, verilənlərin təhlili və tədqiqat metodları üzrə kursların keçirilməsi bu boşluqların aradan qaldırılmasına ciddi töhfə verəcək", - deyə o vurğulayıb.

İ.Orucovun fikrincə, proqramın ən mühüm üstünlüklərindən biri doktorantların elmi-pedaqoji fəaliyyətə cəlb olunmasıdır. O qeyd edib ki, ənənəvi sistemdə doktorantların əksəriyyəti elmi müəssisələrdən kənarda çalışır, nəticədə elmi fəaliyyət ikinci plana keçir və proses formal xarakter alırdı. Yeni modeldə isə doktorantların təhsil aldıqları müəssisələrdə rəsmi əmək fəaliyyəti ilə təmin olunması onların akademik mühitlə daha sıx əlaqəsini təmin edəcək.

Ekspert eyni zamanda proqramın maliyyə təminatını da mühüm üstünlük kimi qiymətləndirib. Onun sözlərinə görə, yüksək məbləğli SABAH təqaüdü və rəsmi əməkhaqqı gənclərin elmə marağının artırılmasında mühüm rol oynayacaq. "Azərbaycanda gənclərin elmdən uzaqlaşmasının əsas səbəblərindən biri maliyyə qeyri-müəyyənliyidir. Bir çox perspektivli gənc tədqiqatçılar maddi səbəblərdən elmi fəaliyyətlərini davam etdirə bilmirlər və digər sahələrə yönəlirlər. Təqaüd və əməkhaqqının birlikdə verilməsi doktorantların maliyyə qayğılarını əhəmiyyətli dərəcədə azaldacaq və onların diqqətini tam şəkildə elmi fəaliyyətə yönəltməsinə imkan yaradacaq", - deyə o bildirib.

*"SABAH çərçivəsində doktorantura təhsilinin tətbiqinə başlanılması Azərbaycanın elm və ali təhsil sistemində yeni mərhələnin əsasını qoyur*

Bununla yanaşı, ekspert proqramın qarşısında müəyyən çağırışların da olduğunu qeyd edib. Onun sözlərinə görə, ilk iki ildə tədris və tədqiqat fəaliyyətinin paralel aparılması zamanın düzgün idarə olunmasını tələb edəcək. "Doktorant eyni vaxtda dərslərdə iştirak etməli, imtahanlara hazırlaşmalı, laboratoriya və ya arxiv tədqiqatları aparmalıdır. Əgər proqram həddindən artıq bürokratik və nəzəri xarakter daşıyarsa, bu, tədqiqat prosesinə mənfi təsir göstərə bilər. Buna görə də balansın düzgün qurulması vacibdir", - deyə İ.Orucov vurğulayıb.

Ekspert hesab edir ki, proqramın uğuru yalnız təqaüd və yeni tədris modelindən deyil, bütövlükdə elmi ekosistemin necə qurulacağından asılı olacaq. Onun fikrincə, yerli elmi rəhbərlərlə yanaşı, xarici mentorların, beynəlxalq ekspertlərin və birgə elmi rəhbərlik institutunun tətbiqi vacibdir. "Ən önəmli məsələlərdən biri də doktoranturanı bitirən gənclərin gələcək karyera perspektivlərinin aydın müəyyənləşdirilməsidir. Bu insanlar üçün universitetlərdə, elmi-tədqiqat institutlarında və digər akademik qurumlarda layiqli əməkhaqqı və peşəkar inkişaf imkanları yaradılmalıdır. Yalnız bu halda proqram uzunmüddətli və davamlı nəticələr verə bilər", - deyə ekspert əlavə edib.

Onun qənaətincə, SABAH doktorantura proqramı uğurla həyata keçirilərsə, yaxın illərdə Azərbaycanın elmi mühitində daha keyfiyyətli tədqiqatların aparılması, beynəlxalq elmi nəşrlərin sayının artması və ali təhsil müəssisələrinin elmi potensialının güclənməsi istiqamətində mühüm nəticələr əldə olunacaq.

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Məğlub ordunun dişsiz paradı

***Ermənistanda keçirilən son hərbi parad regionda diqqətlə izlənən hadisələrdən biri oldu. İrəvanın mərkəzində təşkil olunan mərasimdə Ermənistan ordusunun arsenalında olan müxtəlif təyinatlı hərbi texnikalar nümayiş etdirildi. Parad zamanı artilleriya vasitələri, zirehli texnikalar, hava hücumundan müdafiə sistemləri və pilotsuz uçuş aparatları ön plana çıxarıldı.***



Son illərdə Ermənistanın fərqli ölkələrdən hərbi texnika alması fonunda bu nümayiş daha çox daxili auditoriyaya mesaj kimi qiymətləndirilir. Bəs parad zamanı nümayiş olunan silahlar Azərbaycana real təhlükə yarada bilərmi?

■ **Hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov Hafta.az-a bildirib ki, Ermənistanın son dövrdə hərbi arsenalını yeniləmək istiqamətində atdığı addımlar diqqətdə saxlanmalıdır.**

Onun sözlərinə görə, parad zamanı nümayiş olunan texnikalar Ermənistan ordusunun yeni imkanlar əldə etmək cəhdini göstərsə də, bu, regionda hərbi balansın dəyişməsi anlamına gəlmir: "Paradda nümayiş olunan texnikalar Ermənistanın son illərdə hərbi satınalma istiqamətində aktivləşdiyini göstərir. Müxtəlif ölkələrdən alınan silah sistemlərinin nümayişi ilk baxışdan diqqət çəkə bilər. Ancaq müasir müharibədə yalnız texnikanın mövcudluğu həlledici deyil. Onun idarə olunması, şəxsi heyətin hazırlıq səviyyəsi, koordinasiya və döyüş təcrübəsi əsas amillərdir. Azərbaycan Ordusu həm texniki imkanlarına, həm peşəkarlığına, həm də real döyüş təcrübəsinə görə bölgədə üstün mövqedədir. Ermənistanın nümayiş etdirdiyi texnikalar müəyyən taktiki imkanlar yarada bilər, sərhəddə lokal riskləri müəyyən qədər artıra bilər. Bunu Azərbaycanın təhlükəsizlik balansını dəyişəcək səviyyədə qiymətləndirmək düzgün olmaz. Burada əsas məqsəd həm daxili auditoriyaya ordunun gücləndiyi görüntüsünü yaratmaq, həm də regiona siyasi mesaj verməkdir".

■ **Siyasi şərhçi Elxan Şahinoğlu Hafta.az-a açıqlamasında bildirib ki, son paradın əsas yükü hərbi deyil, daha çox siyasi və geosiyasi məzmun daşıyır. Onun fikrincə, Ermənistanın son dövrdə fərqli istiqamətlərdən silah tədarükünə üstünlük verməsi həm də tərəfdaşlarına verilən mesajdır:**

"İrəvanın keçirdiyi son parad hərbi güc nümayişindən daha çox siyasi xarakter daşıyır. Ermənistan bununla göstərməyə çalışır ki, yeni təhlükəsizlik istiqamətləri formalaşdırır və ordunun yenilənməsi üzərində işləyir.

Burada əsas hədəflərdən biri həm daxili auditoriyada siyasi fonu gücləndirmək, həm də beynəlxalq tərəfdaşlara yeni hərbi əməkdaşlıq imkanlarını nümayiş etdirməkdir. Regiondakı real hərbi balans parad görüntüləri ilə müəyyən olunmur. Azərbaycanın son illərdə formalaşdırdığı müdafiə imkanları, texnoloji üstünlüyü və təhlükəsizlik sistemləri regionda əsas balans yaradan faktorlardır. Ermənistanın hərbi aktivliyi izlənməlidir, amma bunu dərhal yeni təhlükə mərhələsi kimi təqdim etmək doğru yanaşma olmaz. Hazırkı mərhələdə bu daha çox siyasi və geosiyasi mesaj kimi görünür".

*"Paradda nümayiş olunan texnikalar Ermənistanın son illərdə hərbi satınalma istiqamətində aktivləşdiyini göstərir*

*Burada əsas hədəflərdən biri həm daxili auditoriyada siyasi fonu gücləndirmək, həm də beynəlxalq tərəfdaşlara yeni hərbi əməkdaşlıq imkanlarını nümayiş etdirməkdir*

✍ ***Tahirə***

## XƏBƏRİNİZ OLSUN...



■ ABŞ Ermənistanın suverenliyinə qəsd etmir və İrəvandan digər ölkələrlə dostluq münasibətlərini pozmağı tələb etmir. Bunu ABŞ-nin dövlət katibi Marko Rubio Senatda çıxışı zamanı bildirib. "Biz, Amerika şirkətlərinin inhisarına can atmırıq, lakin onların ədalətli paylarını əldə etməsini istəyirik", - deyə o vurğulayıb.

---

■ "Azərpoçt"un keçmiş rəhbəri "PAŞA Kapital"a Baş İcraçı direktor təyin olunub. İsi Mustafayev "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC-nin Baş İcraçı direktoru vəzifəsinə təyin olunub. Bu barədə məlumat şirkətin 2025-ci il üzrə maliyyə nəticələrinə həsr olunmuş mətbuat konfransında açıqlanıb.

---

■ TƏBİB-də iki yeni təyinat həyata keçirilib. Elvin Bayramov İnzibati idarəetmə departamentinin rəhbəri vəzifəsinə təyin edilib. Leyla Qurbanova İctimaiyyətlə əlaqələr və kommunikasiya departamentinin Daxili kommunikasiya şöbəsinin müdiri vəzifəsinə gətirilib.

---




■ "Turan Tovuz" klubu UEFA bayrağı altında keçirilən yarışlarda iştirakına qadağa qoyulması ilə bağlı İdman Arbitraj Məhkəməsinə (CAS) müraciət edəcək. Qeyd edək ki, 2019-cu ildə Birinci Divizionda çıxış edərkən danışılmış oyunlarla əlaqədar "Turan Tovuz"un 7 futbolçusunun futbolla bağlı bütün növ fəaliyyətlərinə qadağa qoyulub.

---

■ Madrid "Real"ı bu yayın ilk transferini reallaşdırmağa yaxındır. Bu barədə insayder Fabritsio Romano məlumat yayıb. Mənbənin iddiasına görə, "Kral klubu" "Inter" və Niderland millisinin müdafiəçisi Denzel Dumfris ilə bağlı danışıqları uğurla yekunlaşdırıb.

---

■ Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" (AÇG) neft-qaz yataqları blokunda indiyədək (01.05.2025 tarixinə) 400-dən çox quyu qazılıb. Hazırda "AÇG"də 200-dən artıq aktiv quyu fəaliyyət göstərir. İndiyədək "AÇG"dən 4,6 mlrd. bareldən çox neft hasil edilib.

---



■ Türkiyəli aparıcı Reha Muhtar vəfat edib. Reha Muhtar 66 yaşında Bodrumda müalicə olunduğu xəstəxanada vəfat edib. O, karyerası ərzində Kanal D, Star TV, ATV, FOX TV, CNN Türk və "Kanaltürk"də çalışıb, eyni zamanda, müxtəlif qəzetlərdə köşə yazıları yazıb.

---

■ Tibbi Rəqəmsal Əkiz Sistemi vətəndaşların sağlamlıq vəziyyətinə dair məlumatların vahid elektron reyestrlər vasitəsilə toplanılmasını və emalını təmin edən mərkəzləşdirilmiş rəqəmsal platformadır. Bunu səhiyyə naziri Teymur Musayev Tibbi Rəqəmsal Əkiz Sisteminin təqdimat mərasimində çıxışında bildirib.

# Rusiyanın təhdidi, Paşinyanın dirənişi

***Ermənistanda daxili siyasi gərginlik seçkilər yaxınlaşdıqca daha da artır. Baş nazir Nikol Paşinyan hakimiyyətini qorumağa çalışdığı bir vaxtda, revanşist siyasi qüvvələrin fəallaşması və Rusiyanın regionda təsir imkanlarını genişləndirmək cəhdləri diqqətlə izlənilir. Milli Məclisin deputatı Azər Badamov bildirir ki, Ermənistanda parlament seçkiləri yaxınlaşdıqca siyasi mübarizə daha da kəskin xarakter almaqdadır. Hazırda əsas rəqabət Baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi Mülki Müqavilə Partiyası ilə müxalif düşərgədə təmsil olunan siyasi qüvvələr arasında gedir.***



## Aktual

Müxalifətin önəmli fiqurları sırasında Samvel Karapetyan, keçmiş prezident Robert Koçaryan və Qagik Tsarukyan yer alırlar: "Paşinyan seçki kampaniyasını, əsasən, Avropa ilə inteqrasiyanın dərinləşdirilməsi, demokratik islahatların davam etdirilməsi və Azərbaycanla sülh gündəliyinin irəli aparılması üzərində qurub. Müxalifət isə daha çox Rusiya ilə strateji əlaqələrin gücləndirilməsini müdafiə edir, Qərbə inteqrasiya siyasətini tənqid edir və bəzi hallarda revanşist ritorikadan istifadə etməklə elektoratı səfərbər etməyə çalışır.

Mövcud ictimai rəy sorğuları və siyasi müşahidələr göstərir ki, hazırkı mərhələdə seçki yarışının favoriti Nikol Paşinyan və onun rəhbərlik etdiyi siyasi qüvvə hesab olunur. Bununla belə, seçkiqabağı proseslərin dinamik xarakter daşıdığı nəzərə alınarsa, müxalifətin fəaliyyətini də diqqətdən kənarda saxlamaq olmaz".

> "
> *Moskva rəsmi İrəvanı xəbərdar edir ki, Ermənistanın Avrasiya İqtisadi İttifaqından uzaqlaşması və ya təşkilatdan çıxması ölkə iqtisadiyyatı üçün ciddi nəticələr doğura bilər*

Deputat bildirir ki, son dövrlərdə Rusiya-Ermənistan münasibətlərində nəzərəçarpacaq gərginlik müşahidə olunur. Moskva rəsmi İrəvanı xəbərdar edir ki, Ermənistanın Avrasiya İqtisadi İttifaqından uzaqlaşması və ya təşkilatdan çıxması ölkə iqtisadiyyatı üçün ciddi nəticələr doğura bilər. Bununla yanaşı, Ermənistan mənşəli bəzi kənd təsərrüfatı məhsullarının və digər malların Rusiya bazarına çıxışında məhdudiyyətlərin tətbiqi də siyasi təzyiq aləti kimi qiymətləndirilir:

"Rusiya rəsmilərinin Paşinyan hökumətinə ünvanladıqları sərt bəyanatlar, eləcə də Moskvanın Ermənistan daxilindəki Rusiyayönlü siyasi qüvvələrə verdiyi açıq və ya dolayı dəstək seçkiqabağı proseslərə təsir göstərmək cəhdi kimi dəyərləndirilə bilər. Ermənistanla Rusiya arasındakı münasibətlər hazırda son illərin ən mürəkkəb mərhələlərindən birini yaşayır".

A.Badamovun sözlərinə görə, müxalifət nümayəndələri hakimiyyətə gələcəkləri təqdirdə Azərbaycanla əldə olunmuş razılaşmaların yenidən nəzərdən keçirilə biləcəyini bəyan edirlər. Bu isə regionda sabitlik və sülh prosesinin gələcəyi ilə bağlı müəyyən narahatlıqlar yaradır: "Lakin mövcud siyasi reallıqlar göstərir ki, revanşist qüvvələrin seçkilərdə hakimiyyətə gəlmək imkanları məhduddur. Ermənistan cəmiyyətinin əhəmiyyətli hissəsi uzunmüddətli qarşıdurma və müharibələrin yaratdığı sosial-iqtisadi problemlərdən yorulub və daha çox sabitlik, iqtisadi inkişaf və regional əməkdaşlıq perspektivlərinə üstünlük verir".

**■ Politoloq Rəşad Bayramov bildirir ki, burada söhbət təkcə hakimiyyət uğrunda rəqabətdən deyil, həm də Ermənistanın gələcək geosiyasi və ideoloji istiqamətinin müəyyənləşdirilməsindən gedir. Paşinyan 2020-ci il müharibəsindən və 2023-cü ildə Qarabağ məsələsinin tam bağlanmasından sonra ciddi tənqidlərə məruz qalsa da, hələ də seçkilərin fovariti olaraq görünür.**

Baxmayaraq ki, onun və rəhbərlik etdiyi siyasi qüvvənin reytinqi 2018 və 2021-ci illə müqayisədə aşağı düşüb. Hakim partiyanın rəqiblərinə nisbətən üstünlüyü isə bir neçə faktorla bağlıdır: "Köçəryanın əvvəlki idarəçilik dövrü ilə bağlı mənfi imici hələ də qalmaqdadır, o, Ermənistanda "Qarabağ klanı"nın üzvü olaraq qəbul olunur və bu səbəblərdən də hakimiyyətə qarşı olan etirazçı kütləni tam şəkildə öz ətrafında cəmləşdirə bilmir. Karapetyana gəldikdə isə o, Rusiya ilə əlaqələri, kilsə ilə yaxın münasibətləri və anti-Paşinyan elektoratının bir hissəsini cəlb etmək potensialı ilə diqqət çəkir. Karapetyanın üstünlüyü ondan ibarətdir ki, o, həm Köçəryan-Sarkisyan komandasından müəyyən məsafədə görünməyə çalışır, həm də Paşinyana qarşı narazı elektorata yeni alternativ təqdim etmək iddiasındadır. Amma onun ikili-üçlü vətəndaşlıq səbəbilə namizdələr siyahısında olmaması, Köçəryan kimi Qarabağ müharibəsinin reallıqlarını qəbul etməməsi və antiQərb mövqeyi böyük seçici kütləsinin onun ətrafında cəmləşməsini imkansız edir. Kütlə anlayır ki, "Güclü Ermənistan" partiyasını dəstəkləmək heç nəyi dəyişməyəcək və nəticədə Karapetyan namizəd olmadığı üçün onun baş nazir olmaq ehtimalı da yoxdur.

Paşinyan isə özünü Ermənistanın təhlükəsizliyini yeni reallıqlara uyğunlaşdırmağa çalışan lider kimi təqdim edir. O, ənənəvi Rusiya yönümlü siyasətdən müəyyən məsafə saxlayaraq Qərblə əlaqələri genişləndirməyə çalışır. Bu kurs isə xüsusilə gənc və şəhər elektoratı arasında dəstək qazanır. Odur ki, hazırkı mərhələdə üstün mövqe yenə də Paşinyanın əlində görünür. Bunun əsas səbəbi onun çox güclü siyasi dəstəyə malik olması deyil, müxalifətin parçalanmış vəziyyətdə qalmasıdır. Ermənistanda seçicilərin əhəmiyyətli hissəsi üçün seçim "Paşinyan və ya keçmiş sistem" dilemması şəklində qalır. Bu isə hakim komandanın manevr imkanlarını artırır". Politoloq bildirir ki, seçkilər yaxınlaşdıqca Rusiyanın Ermənistana təzyiqləri artıracağı əvvəlcədən də proqnozlaşdırılırdı.

Paşinyanın son illərdə Ermənistanın xarici siyasətində diversifikasiya xəttini gücləndirməsi, Avropa İttifaqı və ABŞ ilə əməkdaşlığı genişləndirməsi Rusiyanın regiondakı ənənəvi təsir modelinə uyğun gəlmir. Təzyiq imkanları isə hələ də kifayət qədər genişdir. Ermənistan iqtisadiyyatında, enerji sektorunda, nəqliyyat-kommunikasiya sistemində və informasiya məkanında Moskvanın ciddi mövqeləri qalmaqdadır. Bundan əlavə, Ermənistan cəmiyyətində və siyasi elitasında Rusiyaya yaxın qüvvələr mövcuddur:

"Moskvanın əsas məqsədi mütləq şəkildə Paşinyanı devirməkdən daha çox, onun siyasi davranışlarını məhdudlaşdırmaq və Ermənistanın Qərbə inteqrasiyasını ləngitmək kimi görünür. Rusiya anlayır ki, Ermənistanda açıq şəkildə Kremlə bağlı qüvvələrin hakimiyyətə gətirilməsi həm daxili müqavimət yarada, həm də Qərbin reaksiyasına səbəb ola bilər. Buna görə Moskva daha çox təsir balansını qorumağa çalışır, yəni seçkilərdə maksimum daha çox tərəfdarının parlamentə düşməsi yolu ilə Paşinyana qarşı güncü parlament müxalifəti formalaşdırmaq və strateji qərarların qəbuluna təsir etmək üçün təzyiq imkanı əldə etmək.

Ermənistan rəhbərliyi də Rusiyadan tam uzaqlaşa biləcək resurslara malik deyil. Coğrafi vəziyyət, iqtisadi əlaqələr və təhlükəsizlik amilləri İrəvanı müəyyən balans siyasəti aparmağa məcbur edir. Buna görə yaxın perspektivdə Moskvanın təzyiqləri Paşinyanın qərarlarına təsir göstərəcək, lakin Ermənistanın tamamilə əvvəlki geosiyasi xəttə qayıtmasına səbəb olacaq səviyyədə görünmür".

R.Bayramov deyir ki, revanşist qüvvələrin fəallaşması Ermənistanın daxili siyasətində müşahidə olunan mühüm tendensiyalardan biridir. Bu dairələr əsasən Qarabağ müharibəsinin nəticələri ilə barışmaq istəməyən, əvvəlki təhlükəsizlik və xarici siyasət konsepsiyasının bərpasını müdafiə edən qruplardan ibarətdir. Son dövrlərdə onların ictimai fəallığı artsa da, bu prosesin real hakimiyyət dəyişikliyinə çevrilməsi ehtimalı yox deyilə biləcək qədər aşağıdır: "Məsələnin əsas tərəfi ondan ibarətdir ki, Ermənistan cəmiyyətində emosional revanşizm ilə siyasi revanşizm eyni şey deyil. Müharibənin nəticələrindən narazı olan və ya milli travma yaşayan insanların sayı kifayət qədər çoxdur. Bu narazılıq avtomatik olaraq keçmiş siyasi qüvvələrə dəstək anlamına gəlmir. Həmin qüvvələr uzun illər ərzində ölkədə korrupsiya, oliqarx idarəçilik və institusional zəifliklə assosiasiya olunur.

> "
> *Sorğular və ictimai müzakirələr də göstərir ki, Ermənistan cəmiyyətinin əhəmiyyətli hissəsi yeni müharibə perspektivinə ehtiyatla yanaşır*

Sorğular və ictimai müzakirələr də göstərir ki, Ermənistan cəmiyyətinin əhəmiyyətli hissəsi yeni müharibə perspektivinə ehtiyatla yanaşır. İnsanlar daha çox təhlükəsizlik, iqtisadi sabitlik və beynəlxalq təcriddən çıxış yolları axtarırlar. Bu baxımdan revanşist ritorika müəyyən auditoriyada dəstək qazansa da, geniş seçici kütləsini səfərbər etməkdə çətinlik çəkir.

Paşinyanın üstünlüyü məhz burada ortaya çıxır. O, öz siyasi kursunu reallıqların qəbul edilməsi və dövlətçiliyin qorunması zərurəti üzərində qurur. Müxalifət isə hələlik emosional narazılığı praktik siyasi proqramla birləşdirə bilmir. Bununla belə, revanşist qüvvələrin tamamilə zəiflədiyini söyləmək də düzgün olmaz. Əgər sosial problemlər dərinləşərsə, hakimiyyətin reytinqi ciddi şəkildə aşağı düşərsə və ya xarici güclər bu qüvvələri daha fəal dəstəkləyərsə, onların təsir imkanları arta bilər. Hazırkı şəraitdə revanşist düşərgənin hakimiyyətə gəlmək üçün yetərli siyasi potensiala malik olmadığı açıq şəkikldə görünür".

✍ *Tahirə Qafarlı*

***Son illərdə qlobal ticarət marşrutlarının yenidən formalaşdığı, alternativ nəqliyyat dəhlizlərinə marağın sürətlə artdığı bir dövrdə Orta Dəhliz Avrasiya məkanının ən perspektivli tranzit xətlərindən birinə çevrilib. Asiya ilə Avropanı birləşdirən bu marşrutun səmərəliliyi və rəqabət qabiliyyəti isə birbaşa onun üzərində yerləşən infrastrukturun imkanlarından asılıdır.***




# Orta Dəhlizin genişlənməsi Azərbaycanın regional gücünü daha da artıracaq

Məhz bu baxımdan Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin modernləşdirilərək istifadəyə verilməsi təkcə regional nəqliyyat layihəsi deyil, həm də Orta Dəhlizin gələcək inkişafını müəyyənləşdirən mühüm strateji addım kimi qiymətləndirilir.

İyunun 2-də Gürcüstanın Axalkalaki dəmir yolu və logistika kompleksində keçirilən tədbir bir daha göstərdi ki, Azərbaycanın təşəbbüsü və investisiyaları ilə həyata keçirilən layihələr regionun nəqliyyat xəritəsini dəyişməkdə davam edir. Bakı–Tbilisi–Qars xəttinin yükötürmə qabiliyyətinin 1 milyon tondan 5 milyon tona çatdırılması Orta Dəhlizin imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir, Azərbaycanın tranzit ölkə kimi mövqeyini daha da möhkəmləndirir. Bu gün Çin, Mərkəzi Asiya, Cənubi Qafqaz və Avropa arasında yük axınlarının artdığı şəraitdə BTQ xətti Orta Dəhlizin əsas dayaqlarından biri kimi ön plana çıxır.

**■ Mövzu ilə bağlı AZƏRTAC-a açıqlamasında Türkiyənin Qaziantep Universitetinin professoru Ali Fuat Gökçe bildirib ki, qlobal ticarət marşrutlarında yaranan yeni çağırışlar alternativ nəqliyyat dəhlizlərinə tələbatı əhəmiyyətli dərəcədə artırıb.**

Bu şəraitdə Orta Dəhlizin genişləndirilməsi və infrastrukturunun müasirləşdirilməsi Şərq-Qərb istiqamətində beynəlxalq yükdaşımaların təhlükəsiz və səmərəli həyata keçirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin modernləşdirilərək yenidən istifadəyə verilməsi Azərbaycanın son illərdə həyata keçirdiyi nəqliyyat və logistika siyasətinin mühüm nəticələrindən biridir. Onun sözlərinə görə, Asiya ilə Avropa arasında yükdaşımalarında alternativ marşrutlara ehtiyacın artması Orta Dəhlizin strateji əhəmiyyətini daha da yüksəldib.

"Son illərdə Çin ilə Avropa arasında yükdaşımalarının həcminin artması, qlobal logistika marşrutlarının şaxələndirilməsi zərurəti və geosiyasi risklər fonunda Orta Dəhlizə maraq əhəmiyyətli dərəcədə yüksəlib. Belə şəraitdə Bakı–Tbilisi–Qars xətti Çin, Mərkəzi Asiya, Xəzər hövzəsi, Cənubi Qafqaz və Avropanı birləşdirən ən mühüm nəqliyyat bağlantılarından biri kimi çıxış edir. Tokiodan Rotterdam limanına istiqamətlənən ticarət gəmilərinin Ümid burnu marşrutundan istifadə etməsi daşınma müddətini əhəmiyyətli dərəcədə uzatmaqla yanaşı, sığorta və nəqliyyat xərclərinin də artmasına səbəb olur. Bu baxımdan Orta Dəhlizin genişləndirilməsi və reabilitasiyası Şərq-Qərb marşrutu üzrə ehtiyac duyulan quru ticarət yolunun əhəmiyyətini daha da artıracaq. Bu dəhliz üzərində yerləşən Azərbaycan üçün yaranan imkanlar yalnız nəqliyyat və logistika sahəsi ilə məhdudlaşmır. Orta Dəhlizin inkişafı Azərbaycanın beynəlxalq ticarət və logistika mərkəzinə çevrilməsinə şərait yaratmaqla yanaşı, ölkənin siyasi mövqelərini də gücləndirəcək.

> "
> *Azərbaycanın geostrateji mövqeyi, həyata keçirdiyi nəqliyyat layihələri və beynəlxalq tərəfdaşlıq siyasəti ölkəni Avrasiya məkanının əsas əlaqələndirici mərkəzlərindən birinə çevirir*

İqtisadiyyat, siyasət və diplomatiya bir-birindən ayrılmaz anlayışlardır. İqtisadi baxımdan güclü olan, eyni zamanda, mühüm beynəlxalq ticarət marşrutları üzərində yerləşən ölkələr regional siyasətdə daha təsirli mövqeyə malik olurlar", - deyə professor bildirib.

Ali Fuat Gökçe qeyd edib ki, Azərbaycanın enerji, nəqliyyat və logistika imkanlarının genişlənməsi ölkənin regional və beynəlxalq qərarların qəbulunda rolunu daha da artırır. "Orta Dəhlizin inkişafı nəticəsində Azərbaycan Cənubi Qafqazda yalnız proseslərdə iştirak edən tərəf deyil, həm də regional təşəbbüslərin formalaşdırılmasında aparıcı rol oynayan ölkəyə çevriləcək. Azərbaycanın geostrateji mövqeyi, həyata keçirdiyi nəqliyyat layihələri və beynəlxalq tərəfdaşlıq siyasəti ölkəni Avrasiya məkanının əsas əlaqələndirici mərkəzlərindən birinə çevirir. Orta Dəhlizin potensialının tam reallaşdırılması Azərbaycanın həm iqtisadi imkanlarını genişləndirəcək, həm də onun regional və qlobal siyasi çəkisini daha da artıracaq.

# Cekson-Venik məhdudiyyətlərinin aradan qaldırılmasını istərdik



**ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, senator Stiv Deyns Dövlət katibi Marko Rubio ilə dinləmələr zamanı Mərkəzi Asiya ölkələri ilə əlaqələr üçün Cekson-Venik ticarət məhdudiyyətləri məsələsini qaldırıb. O bildirib ki, C5 ölkələri ilə əlaqələri gücləndirmək üçün böyük maneə olan bu məsələ Azərbaycanı da narahat edir.**

Stiv Deyns məhdudiyyətlərin ləğvi təşəbbüsünün həmsədri olduğunu və bu prosesin Dövlət Departamenti üçün prioritet olub-olmadığını soruşub. "Məhdudiyyətlərin aradan qaldırılması Mərkəzi Asiya ilə münasibətlərimizə əhəmiyyətli dərəcədə təsir göstərər", - deyə o əlavə edib. "Bəli, bu, zərərlidir. Biz bunun aradan qaldırılmasını istərdik. Düşünürəm ki, bunu sizinlə birlikdə gündəmə gətirmək barədə sədr və üzvlərlə danışmalısınız", - deyə Marko Rubio dinləmələr zamanı cavab verib.

"Ötən ilin avqust ayında Ağ Evdə Prezident Trampın liderliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan sülh sənədi imzalamaq üçün bir araya gəldi", Stiv Deyns Dövlət katibi Marko Rubio ilə dinləmələr zamanı sual verərkən deyib. O bildirib ki, bu, böyük dönüş nöqtəsi idi. "Fikrimcə, bu barədə məlumatlandırma azdır. Düşünürəm ki, bu hekayəni yaymalıyıq. Bu, rəhbərlik tərəfindən həll edilmiş kritik bir geosiyasi problemdir", - deyə o əlavə edib.

Məhz yaradıcı düşüncə danışıqlardakı bəzi daha mürəkkəb məsələlərin həlli olaraq TRIPP marşrutunun yaradılmasına gətirib çıxardı. Stiv Deyns deyib.

"Layihə təkcə Ermənistan və Azərbaycan üçün deyil, həm də bir çox qonşu ölkələr üçün xeyir vəd edir", - deyə o bildirib. TRIPP layihəsi Ermənistan və Azərbaycan arasında sülh sazişinin lövbəridir. Mark Rubio Senatda xarici əlaqələr komitəsində dinləmələr zamanı deyib. O bildirib ki, o, əslində lövbərdən daha artıqdır və inqilabi xüsusiyyətə malikdir. "Beləliklə, biz hazırda bu işdə çox fəal iştirak edirik. Biz, sözün əsl mənasında, müqaviləni imzaladıq və bu, bizə özəl sektorun, Amerika maraqlarının xeyrinə, eləcə də Ermənistan, Azərbaycan və digər regional ölkələrin xeyrinə Amerika şirkətlərinin investisiya qoymasına imkan verəcək və ümid edirik ki, bizi stimullaşdıracaq",- deyə Rubio əlavə edib.

# Pensiya fonduna toplanan vəsaiti niyə ala bilmirik?

***Son dövrlər Azərbaycanda pensiya sistemi ilə bağlı müzakirələr yenidən gündəmə gəlib. Əsas mübahisə mövzusu vətəndaşların illərlə əməkhaqlarından tutulub pensiya hesablarında toplanan vəsaitdən erkən istifadə imkanlarının olmamasıdır. Xüsusilə ağır xəstəlik, mənzil ehtiyacı və digər həyati situasiyalarda bu vəsaitə çıxışın məhdudluğu ictimai narazılıq yaradır. Müzakirələrin aktuallaşmasına səbəb olan nümunələrdən biri sosial şəbəkələrdə yayılan müraciətdir.***



## Sosial



**Xalid Kərimli,**
iqtisadçı-ekspert

*Bu təkliflərdən biri vəfat edən şəxsin pensiya kapitalının müəyyən hissəsinin, məsələn, 30 faizinin vərəsələrə ödənilməsi ilə bağlıdır*

*Bu model fərdi yığım prinsipi ilə işləmədiyi üçün vətəndaşın hesabında toplanan vəsait şəxsi sərbəst istifadə üçün nəzərdə tutulmur*

Həmin müraciətdə qeyd olunur ki, 40 il müəllim işləyən və hazırda 64 yaşında olan bir qadının pensiya hesabında kifayət qədər vəsait toplanıb. Ağır xəstəlik səbəbindən yüksək müalicə xərcləri yarandığı halda belə, bu vəsaitdən istifadə etmək mümkün deyil. Ailə hesab edir ki, uzun illər ərzində əməkhaqqından sosial sığorta şəklində yığılan vəsait, ən azı, kritik hallarda vətəndaşa geridönüş edilməlidir.

Eyni zamanda, cəmiyyətdə pensiya hüququ ilə bağlı daha geniş suallar da gündəmdədir. Bir çox vətəndaş hesab edir ki, əmək fəaliyyəti dövründə sosial sığorta ödənişləri həyata keçirilsə də, müəyyən hallarda, xüsusilə 25 il sığorta stajı və ya kifayət qədər pensiya kapitalı toplanmadıqda əmək pensiyası almaq mümkün olmur. Bu isə uzun illər işləyən, lakin rəsmi sistemə tam uyğunlaşmayan şəxslər üçün əlavə sosial risk yaradır. Digər mühüm müzakirə mövzusu isə vətəndaşın vəfatından sonra pensiya kapitalının taleyidir. İctimai fikirdə belə bir sual tez-tez səslənir: "Əgər bu vəsait əməkhaqqımdan tutulursa, niyə ailəmə ötürülmür?".

**■ Məsələyə münasibət bildirən millət vəkili Vüqar Bayramov qeyd edib ki, Milli Məclisin Əmək və sosial siyasət komitəsində pensiya sistemi ilə bağlı müxtəlif təkliflər müzakirə olunur.** Onun sözlərinə görə, bu təkliflərdən biri vəfat edən şəxsin pensiya kapitalının müəyyən hissəsinin, məsələn, 30 faizinin vərəsələrə ödənilməsi ilə bağlıdır. V.Bayramovun fikrincə, belə mexanizmlərin tətbiqi bir neçə mühüm nəticə verə bilər. İlk növbədə, bu, vətəndaşların pensiya sisteminə olan etimadını artıra bilər. Digər tərəfdən, sosial sığorta ödənişlərinin daha şəffaf və məqsədli şəkildə toplanmasına stimul yaradar. Eyni zamanda, bu yanaşma əmək bazarının rəsmiləşdirilməsinə də müsbət təsir göstərə bilər, çünki vətəndaş öz ödədiyi vəsaitin gələcəkdə daha real sosial təminata çevriləcəyinə inanır.

**■ Mövzu ilə bağlı iqtisadçı-ekspert Xalid Kərimli isə mövcud pensiya sisteminin mahiyyətini izah edərək bildirib ki, Azərbaycanda sistem həmrəylik prinsipi üzərində qurulub. Bu modeldə hazırda işləyən şəxslərin əməkhaqlarından tutulan sosial sığorta haqları birbaşa pensiyaçıların ödənişlərinə yönəldilir, çatışmayan hissə isə dövlət büdcəsi hesabına tamamlanır.**

Onun sözlərinə görə, bu model fərdi yığım prinsipi ilə işləmədiyi üçün vətəndaşın hesabında toplanan vəsait şəxsi sərbəst istifadə üçün nəzərdə tutulmur. Sistem daha çox sosial müdafiə xarakteri daşıyır və əsas məqsəd yaşlı əhalinin minimum sosial təminatını qorumaqdır. Ekspert əlavə edib ki, bu yanaşma səbəbindən pensiya kapitalının müalicə, mənzil və ya digər şəxsi ehtiyaclar üçün əvvəlcədən istifadəsi nəzərdə tutulmur.

Mövcud sistemdə vətəndaş vəfat etdikdə ailə üçün ayrıca sosial mexanizmlər tətbiq olunur; məsələn, ailə başçısını itirməyə görə müavinət kimi ödənişlər bu kateqoriyaya daxildir. Pensiya alan şəxsin vəfatı halında isə bəzi hallarda həyat yoldaşına daha yüksək pensiya seçmək imkanı verilir. Bütün bu mexanizmlərə baxmayaraq, pensiya kapitalının birbaşa vərəsələrə tam ötürülməsi hazırkı sistemdə nəzərdə tutulmur. X.Kərimlinin fikrincə, vətəndaşların gözlədiyi daha çevik mexanizmlər yalnız gələcəkdə özəl pensiya fondlarının formalaşması ilə mümkün ola bilər. Belə fondlar yarandıqda vətəndaşlar fərdi yığım prinsipi ilə işləyən sistemlərdən istifadə edə, yığımlarını daha sərbəst idarə edə və müəyyən hallarda vərəsəlik mexanizmlərindən faydalana bilərlər. Hazırda isə dövlət pensiya sistemində yığılan kapital 144 aya (12 ilə) bölünərək aylıq ödəniş şəklində vətəndaşa təqdim olunur. Bu hesablamalar orta ömür uzunluğu nəzərə alınaraq aparılır və şəxsin real ömür müddətindən asılı olmayaraq eyni qaydada tətbiq edilir.

Beləliklə, Azərbaycanda pensiya kapitalından erkən istifadə məsələsi hələlik sistemin əsas prinsipləri ilə uyğunlaşmadığı üçün yaxın perspektivdə geniş tətbiq edilə biləcək mexanizm kimi görünmür. Bununla belə, həm ictimai müzakirələr, həm də ekspert rəyləri göstərir ki, pensiya sistemində islahatlara ehtiyac var və gələcəkdə daha çevik, fərdi və vətəndaş yönümlü modellərin tətbiqi istisna edilmir.

✍ *Sevinc*

## İstehlak

***Azərbaycanda orqanik məhsulların istehsalı genişlənə bilər. Bu məsələ "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda öz əksini tapıb. Proqram orqanik istehsalın mərhələli şəkildə inkişaf etdirilməsini və bu sahədə maarifləndirmə işlərinin gücləndirilməsini prioritet istiqamətlərdən biri kimi müəyyən edir.***



# Məhsullarımız orqanik olacaq

*Azərbaycanda orqanik kənd təsərrüfatının inkişafı ilə bağlı yeni hədəflərin müəyyənləşdirilməsi müsbət addımdır*

Sənədə əsasən, əvvəlcə ölkə üzrə orqanik kənd təsərrüfatı məhsullarının istehsal potensialı qiymətləndiriləcək, daha sonra isə bu istiqamət üçün uyğun regionlar və məhsul növləri müəyyən ediləcək. Seçilmiş ərazilərdə fermerlər arasında geniş təbliğat və təşviqat kampaniyaları aparılacaq. Bununla yanaşı, pilot orqanik təsərrüfatların yaradılması, xüsusi təlim proqramlarının təşkili və fermerlərin müasir orqanik istehsal metodlarına yiyələnməsi də planlaşdırılır. Hədəf yalnız istehsalı artırmaq deyil, eyni zamanda sahə üzrə nümunəvi modellər formalaşdırmaqdır. Mütəxəssislərin fikrincə, bu cür təşəbbüslər ölkədə orqanik məhsullara marağın artmasına səbəb ola bilər. Xüsusilə son illərdə sağlam qidalanmaya diqqətin yüksəlməsi fonunda orqanik meyvə və tərəvəzlərə tələbatın artacağı gözlənilir.

Proqram çərçivəsində fermerlərin məlumatlandırılması və bilik səviyyəsinin artırılması da əsas istiqamətlərdən biri kimi çıxış edir. Bu isə gələcəkdə həm daxili bazarda keyfiyyətli məhsul təklifinin genişlənməsinə, həm də orqanik kənd təsərrüfatının iqtisadi dəyərinin yüksəlməsinə imkan verə bilər. Ümumilikdə, 2026-2030-cu illəri əhatə edən bu yanaşma Azərbaycanda kənd təsərrüfatının daha dayanıqlı və ekoloji yönümlü inkişafına töhfə verməyi hədəfləyir.

**■ Mövzu ilə bağlı kənd təsərrüfatı məsələləri üzrə ekspert Mircavid Həsənov bildirib ki, Azərbaycanda orqanik kənd təsərrüfatının inkişafı ilə bağlı yeni hədəflərin müəyyənləşdirilməsi müsbət addımdır. Onun sözlərinə görə, ölkədə kənd təsərrüfatının müxtəlif sahələrində orqanik məhsul yetişdirmək üçün kifayət qədər potensial mövcuddur.**

Ekspert hesab edir ki, əsas problem istehsaldan çox, məhsulun bazara çıxışı ilə bağlıdır. Yerli istehsalçıların satış imkanlarının zəif olması səbəbindən bir çox fermerlər orqanik istehsala keçiddə tərəddüd edirlər. "Demək olar ki, bazar problemi var. Orqanik məhsulları əsasən Avropa ölkələri alır və onların da tələbləri çox sərtdir. Fermerlər məhsuldarlığı artırmaq üçün çox vaxt zərərvericilərə qarşı kimyəvi vasitələrdən istifadə edirlər. Avropa isə belə məhsulları qəbul etmir. Bizim əsas ixrac bazarımız Rusiya olduğuna görə orada tələblər nisbətən yumşaqdır və görünüşü yaxşı olan məhsula üstünlük verilir. Ona görə yerli istehsalçılara Rusiya bazarlarına çıxmaq daha rahatdır", - deyə Mircavid Həsənov qeyd edib. Onun sözlərinə görə, fərqli bazarlarda yanaşma da fərqlidir. Məsələn, bəzi Avropa ölkələrində istehlakçılar xarici görünüşdən çox məhsulun təbii olmasına önəm verirlər.

Ekspert Xudat rayonundan bir sahibkarın təcrübəsini nümunə göstərərək bildirib ki, həmin fermer Polşaya orqanik meyvə ixrac edir və görünüşcə "qüsurlu" sayılan, lakin təbii yetişdirilən məhsulu 2-3 avroya satır: "Bizdə bu ənənə zəifdir. Düzdür, orqanik məhsul istehsalı texniki baxımdan o qədər də çətin deyil, ucuz başa gəlir. Lakin bu sahədə əsas problemlərdən biri məhsuldarlığın aşağı olmasıdır. Bununla yanaşı, orqanik məhsullar təbii olduğundan baha qiymətə təklif olunur. Ənənəvi kənd təsərrüfatı məhsulları isə bazarda daha ucuz satılır".

Ekspert hesab edir ki, dövlət bu istiqamətdə pilot və nümunəvi təsərrüfatlar yaratmaqla yanaşı, fermerlərin bazara çıxış imkanlarını da gücləndirməlidir. Onun fikrincə, kompleks yanaşma tətbiq olunarsa, fermerlərin orqanik kənd təsərrüfatına marağı artar və bu sahə daha sürətli inkişaf edə bilər: "Biz bu sahədə fermerlər arasında maarifləndirmə işləri aparmaqla, pilot təsərrüfatlar yaratmaqla kifayətlənməməliyik, həm də bazar imkanlarını araşdırmalıyıq. Yəni, əvvəlcə bazar tapmalı, sonra istehsalı artırmalıyıq. Əgər fermerlər üçün fəqrli bazarlara çıxış imkanları olarsa, orqanik məhsul istehsalına maraq artacaq".

✍ *Sevinc*

# "Nar" gənclərin təhsilinə dəstək olmağa davam edir

R




***Sərfəli mobil operator "Nar" 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təhsilin inkişafına yönəlmiş təşəbbüslərini davam etdirir. Bu əlamətdar gün çərçivəsində şirkət Bakıda yerləşən Kimya-biologiya təmayüllü Respublika liseyinə 20 ədəd noutbuk təqdim edib.***

Tədbirdə iştirak edən Kimya-biologiya təmayüllü Respublika liseyinin direktoru və "Nar"ın nümayəndəsi bildirib ki, gənclərin keyfiyyətli təhsil alması, müasir texnologiyalardan istifadə imkanlarının genişləndirilməsi ölkənin gələcək inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

Qeyd olunub ki, təqdim edilən noutbuklar şagirdlərin bilik və bacarıqlarının inkişafına töhfə verəcək, təhsilə yönəlmiş bu cür təşəbbüslər isə gələcəkdə ölkənin elm və iqtisadiyyatına dəyər qatacaq peşəkar kadrların yetişməsinə xidmət edir. Qeyd edək ki, "Nar" təhsilə və gənclərin inkişafına dəstəyi korporativ sosial məsuliyyət fəaliyyətlərinin əsas istiqamətlərindən biri kimi müəyyən edib. Şirkət qəbul imtahanlarında yüksək nəticə göstərən tələbələrin mükafatlandırılması, nitq və eşitmə məhdudiyyətli şəxslər üçün peşə təlimlərinin təşkili, eləcə də müxtəlif təhsil və inkişaf layihələrinin dəstəklənməsi vasitəsilə gənclərin bilik və bacarıqlarının artırılmasına töhfə verir. Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən "Nar" son 7 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur.

Bu uğurun arxasında "Nar"ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir Sim texnologiyası təqdim edir.




**■ Bu ilin yanvar-may aylarında "Bakı Fond Birjası"nın (BFB) ümumi dövriyyəsi 19,4 milyard manat təşkil edib. Bu barədə BFB xəbər verir.**

Hesabat dövründə BFB-də bağlanmış əqdlərin sayı 11 460 təşkil edib. Dövlət qiymətli kağızları üzrə bağlanmış əqdlərin ümumi həcmi 708,4 milyon manat, Mərkəzi Bankın (ARMB) notları üzrə bağlanmış əqdlərin həcmi 602,7 milyon manat, korporativ qiymətli kağızların həcmi isə 205,5 milyon manat, ipoteka istiqrazlarının həcmi isə 407,5 milyon manat olub. Birjada ən böyük dövriyyə isə repo əməliyyatlarının payına düşüb. Belə ki, yanvar-may aylarında bu alətlər üzrə bağlanmış əqdlərin ümumi həcmi 17,5 milyard manat təşkil edib.




**■ Azərbaycan iqtisadiyyatının artımı 2026-cı ildə 2 faizə yüksələcək. Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) Azərbaycanın iqtisadi artımı ilə bağlı proqnozunu açıqlayıb.**

Bankın qiymətləndirməsinə görə, Azərbaycanın real ÜDM artımı 2025-ci ildə 1,4 faizə qədər yavaşıb. 2026-cı ilin birinci rübündə isə iqtisadiyyat illik müqayisədə 0,3 % kiçilib. Buna səbəb neft-qaz sektorunda istehsalın 1,2 faiz azalması və qeyri-neft sektorunda artım tempinin 0,2 faizə qədər zəifləməsi olub. Hesabata əsasən, 2026-cı ilin ilk rübündə inflyasiya orta hesabla 5,7 faiz təşkil edib və Azərbaycan Mərkəzi Bankının hədəf diapazonunun yuxarı həddinə yaxınlaşıb.




**■ ABŞ-da benzinin orta qiyməti may ayında aylıq müqayisədə 9,2 faiz, illik müqayisədə isə 42,2 faiz artıb. May ayında dizelin orta qiyməti də ötən ilin eyni ayı ilə müqayisədə 60% artıb. Bu barədə ABŞ Nəqliyyat Statistikası Bürosu məlumat yayıb.**

Ölkədə benzinin orta qiyməti may ayında illik müqayisədə 42,2 faiz artaraq qalon (təxminən, 3,785 litr) üçün 4,48 dollara çatıb. Qeyd edək ki, 2025-ci ilin may ayında bir qalon benzinin qiyməti 3,15 dollar olub. May ayında benzin qiymətlərindəki artım aprel ayı ilə müqayisədə 9,2 faiz olaraq hesablanıb. Ölkədə dizelin orta qiyməti də may ayında ötən ilin eyni ayı ilə müqayisədə 60 faiz artaraq 5,60 dollara çatıb.



**■ Son beş ay ərzində Beynəlxalq Siqh Federasiyası ilə əməkdaşlığımız çərçivəsində Bakı Təşəbbüs Qrupu iki beynəlxalq konfransı uğurla təşkil edib.**

Bunu Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov "İyun 1984, Amritsar hadisələri: Hindistanın etnik azlıqlara qarşı transmilli repressiyaları soyqırım kontekstində" adlı beynəlxalq konfransda çıxışı zamanı deyib. "Konfranslar transmilli repressiyalar, Hindistanda etnik azlıqlara qarşı ayrı-seçkilik, həmçinin insan hüquqlarının müdafiəsi, beynəlxalq təşkilatların yerli xalqların, etnik azlıqların və ümumilikdə insan hüquqlarının qorunmasındakı rolu kimi mühüm mövzulara həsr olunub", - deyə o vurğulayıb.



**■ Gürcüstan ötən bir il ərzində bölgədə sabitliyin möhkəmləndirilməsi və dayanıqlı sülhün təmin olunmasına yönəlmiş balanslaşdırılmış qonşuluq siyasəti aparıb. Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin illik hesabatında bildirilib.**

Qeyd olunub ki, Gürcüstanı Azərbaycan, Türkiyə və Ermənistanla sarsılmaz strateji tərəfdaşlıq münasibətləri bağlayır.

"Azərbaycan və Türkiyə ilə əməkdaşlıq mövcud birgə strateji əhəmiyyətli layihələrin hesabına daha da gücləndirilir. Qeyd etmək lazımdır ki, Türkiyə, Azərbaycan və Ermənistan əvvəlki kimi, Gürcüstanın ən iri ticarət tərəfdaşlarının ilk onluğuna daxildir.



**■ Xocalı rayonunun Ballıca, Təzəbinə, Badara, Xanyurdu, Şuşakənd kəndlərinin mövcud su təchizatı sistemi bərpa edilərək istismar olunur, digər Xanabad, Seyidbəyli kəndlərinin isə su təchizatı yenidən qurulub. Bu barədə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən (ADSEA) bildirilib.**

Qeyd edilib ki, Ballıca kəndinin dayanıqlı su təchizatı üçün Badara-Xankəndi magistral su kəmərindən D160mm, L=1.3 km su xətti inşa edilib. Xocalı şəhərində fəaliyyəti bərpa edilimiş dövlət qurumlarına, və müxtəlif təşkilatların işçilərinin məskunlaşdığı 364 stehlakçıya xidmət göstərilir. Əsgəran qəsəbəsinin su təchizatı üzrə aparılmış araşdırmalara əsasən qəsəbənin su mənbəyi badara çayında drenaj tipli suqəbuledici qurğudan suyunD325mm, 7 km məsafədən şəhərdə yerləşən su anbarına nəql olunur.

## Aqrar

***Azərbaycanda toxuməçuluğun inkişafı növbəti illərdə yeni mərhələyə keçə bilər. 2026-2030-cu illəri əhatə edən Dövlət Proqramında bu sahənin yalnız istehsal həcminin artırılması deyil, eyni zamanda keyfiyyətə nəzarətin gücləndirilməsi, institusional bazanın təkmilləşdirilməsi və bazar mexanizmlərinin daha şəffaf işləməsi əsas hədəflər kimi müəyyən edilib.***



*“İndiyədək bəzi hallarda bazara daxil olan toxumların keyfiyyətinə nəzarət mexanizmləri formal xarakter daşıyıb və bu da fermerlərin etimadını zəiflədib*

# Keyfiyyətsiz toxum almayacağıq

Sözügedən sənəddə toxumçuluq sahəsinin inkişafı ilə bağlı kompleks tədbirlər paketi nəzərdə tutulur. Buraya qanunvericiliyin yenilənməsi, dövlət nəzarəti mexanizmlərinin gücləndirilməsi, elmi-tədqiqat müəssisələrinin rolunun artırılması və özəl sektorun prosesə daha geniş cəlb olunması daxildir. Qeyd edək ki, son illər kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən fermerlərin ən çox səsləndirdiyi problemlərdən biri idxal olunan toxumun keyfiyyəti ilə bağlıdır. İdxal olunan toxumların bəzən gözlənilən nəticəni verməməsi, zəif cücərmə və məhsuldarlıq göstəricilərinin aşağı olması kimi hallar fermerlərin narazılığına səbəb olub. Məhz bu reallıq toxum bazarında nəzarət və sertifikatlaşdırma sisteminin daha sərt və effektiv olmasını zəruri edir.

Yeni Dövlət Proqramı bu boşluqları aradan qaldırmaq məqsədi daşıyır. Planlara əsasən, “Toxumçuluq haqqında” mövcud qanunvericilik yenidən işlənəcək, normativ hüquqi baza müasir tələblərə uyğunlaşdırılacaq.

Bu dəyişikliklər həm istehsalçılar, həm də idxal-ixrac əməliyyatları ilə məşğul olan subyektlər üçün daha aydın və vahid qaydalar yaradacaq. Eyni zamanda toxum istehsalı ilə məşğul olan elmi-tədqiqat institutlarının fəaliyyəti yenidən təşkil ediləcək. Bu qurumların yalnız elmi araşdırmalarla deyil, həm də praktik toxum istehsalı və seleksiya işləri ilə daha sıx məşğul olması planlaşdırılır. Toxum Fondunun fəaliyyətinin optimallaşdırılması və onun maddi-texniki bazasının gücləndirilməsi də əsas istiqamətlərdən biridir. Bu, ölkə daxilində keyfiyyətli toxum ehtiyatlarının formalaşdırılmasına xidmət edəcək. Proqramda diqqət çəkən digər mühüm məqam ölkəyə idxal



**Əli Əlirzayev,**
iqtisadçı ekspert

olunan toxumlara dövlət nəzarətinin gücləndirilməsidir. Yeni mexanizmlər vasitəsilə hər bir toxum partiyasının keyfiyyət göstəriciləri, sertifikatlaşdırma prosesi və uyğunluq standartları daha ciddi şəkildə yoxlanılacaq. Bu isə bazara aşağı keyfiyyətli məhsulların daxil olmasının qarşısını almağa yönəlib. Bununla paralel olaraq, toxumçuluq sahəsində subsidiyalaşma mexanizmlərinin də təkmilləşdirilməsi nəzərdə tutulur. Ənənəvi dəstək formalarından fərqli olaraq, nəticəyönümlü subsidiyalaşma modelinin tətbiqi planlaşdırılır. Bu yanaşma fermerləri daha keyfiyyətli və məhsuldar toxum istehsalına təşviq edəcək.

Özəl sektorun bu sahəyə cəlb edilməsi də proqramın əsas prioritetlərindən biridir. Müqaviləli toxum istehsalı sisteminin genişləndirilməsi ilə dövlət, elmi qurumlar və özəl istehsalçılar arasında daha dayanıqlı əməkdaşlıq modelinin qurulması hədəflənir. Bu model həm istehsal risklərini azalda, həm də bazarda sabit təchizat zəncirini təmin edə bilər.

■ **Məsələyə münasibət bildirən ekspert Əli Əlirzayevin fikrincə, toxumçuluq sahəsində nəzərdə tutulan bu islahatlar Azərbaycan kənd təsərrüfatı üçün strateji əhəmiyyət daşısa da, onların effektiv nəticə verməsi üçün təkcə normativ dəyişikliklər kifayət deyil. Onun sözlərinə görə, bu sahədə uzun illər yığılan struktur problemlər kompleks yanaşma tələb edir və ən vacib məqam icra mexanizmlərinin real işləməsidir.**

Ə.Əlirzayev bildirir ki, toxum keyfiyyəti aqrar istehsalın “başlanğıc nöqtəsidir” və burada yaranan hər bir problem zəncirvari şəkildə məhsuldarlığa, fermer gəlirlərinə və hətta ərzaq təhlükəsizliyinə təsir göstərir. Onun fikrincə, indiyədək bəzi hallarda bazara daxil olan toxumların keyfiyyətinə nəzarət mexanizmləri formal xarakter daşıyıb və bu da fermerlərin etimadını zəiflədib.

Ekspert qeyd edir ki, idxal toxumlarına nəzarətin gücləndirilməsi mühüm addımdır, lakin bu prosesdə şəffaf laboratoriya yoxlamaları və müstəqil sertifikatlaşdırma sistemi əsas rol oynamalıdır. Onun fikrincə, əgər nəzarət yalnız inzibati səviyyədə qalarsa, real nəticə əldə etmək çətin olacaq.

Ə. Əlirzayev, həmçinin toxum istehsalı ilə məşğul olan elmi-tədqiqat institutlarının rolunun artırılmasını müsbət qiymətləndirir. O hesab edir ki, bu institutlar təkcə elmi araşdırma mərkəzləri kimi deyil, həm də praktik seleksiya və yerli iqlimə uyğun toxum sortlarının yaradılması mərkəzi kimi fəaliyyət göstərməlidirlər. “Azərbaycanın müxtəlif bölgələri üçün fərqli aqroekoloji şərait var. Bir bölgədə yaxşı nəticə verən toxum başqa bölgədə zəif məhsuldarlıq göstərə bilər. Buna görə yerli sortların inkişafı çox vacibdir,” - deyə ekspert vurğulayır. Onun fikrincə, Toxum Fondunun fəaliyyətinin gücləndirilməsi də strateji əhəmiyyət daşıyır. Burada əsas məsələ yalnız maddi-texniki bazanın deyil, idarəetmə səmərəliliyinin də artırılmasıdır.

Əli Əlirzayev hesab edir ki, fondun fəaliyyəti bazar tələblərinə uyğun şəkildə çevik mexanizmlərlə qurulmalıdır ki, fermerlər vaxtında və keyfiyyətli toxuma çıxış əldə edə bilsinlər.

Ekspert subsidiyalaşma mexanizmlərinə də toxunaraq bildirir ki, nəticəyönümlü model doğru yanaşmadır, lakin onun tətbiqi zamanı meyarlar dəqiq müəyyənləşdirilməlidir. Əks halda, subsidiyaların real istehsal artımına deyil, formal göstəricilərə yönəlməsi riski yarana bilər. Onun fikrincə, dövlət dəstəyi birbaşa məhsuldarlıq və keyfiyyət göstəriciləri ilə əlaqələndirilməlidir. Ə. Əlirzayev özəl sektorun toxumçuluğa cəlb edilməsini də vacib hesab edir və qeyd edir ki, bu, sahədə rəqabəti artıraraq keyfiyyətin yüksəlməsinə gətirib çıxara bilər. O, eyni zamanda xəbərdarlıq edir ki, bazarın tam sərbəst buraxılması da risklidir və dövlət tənzimlənməsi balanslı şəkildə qorunmalıdır.

Ekspertin fikrincə, bu islahatlar düzgün icra olunduğu halda Azərbaycan kənd təsərrüfatında məhsuldarlığın artmasına, idxaldan asılılığın azalmasına və yerli istehsalın güclənməsinə ciddi töhfə verə bilər. Bu proses uzunmüddətli və mərhələli yanaşma tələb edir.

Onun qənaətinə görə, toxumçuluq islahatları təkcə kənd təsərrüfatı sahəsinin deyil, ümumilikdə ölkənin ərzaq təhlükəsizliyi siyasətinin əsas dayaqlarından birinə çevrilə bilər.

✍ ***Sevinc***



# Kimlərə və nə qədər əlavə məzuniyyət verilir?

**Əmək Məcəlləsinə əsasən, bir sıra kateqoriyalara aid işçilərə əsas məzuniyyətdən başqa, əmək şəraiti, əmək funksiyasının xüsusiyyətləri, əmək stajı, habelə ailə vəziyyəti nəzərə alınmaqla əlavə məzuniyyət də verilir. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsi məlumat yayıb.**

Bildirilib ki, əmək şəraiti zərərli və ağır olan, yeraltı işlərdə çalışan, eləcə də əmək funksiyası yüksək həssaslıq, həyəcan, zehni və fiziki gərginlik tələb edən işçilər 6 təqvim günündən az olmamaqla əlavə məzuniyyətlə təmin edilirlər. Əlavə məzuniyyət hüququ verən zərərli və ağır istehsalatların, peşə və vəzifələrin siyahısı isə müvafiq qaydada təsdiq edilir.

Əmək stajına görə əlavə məzuniyyət hüququ işçinin işəgötürənlə əmək müqaviləsi bağlayaraq faktik olaraq işlədiyi dövrə əsasən müəyyən edilir. Bu staj dövrü 5 ildən 10 ilədək olduqda 2 təqvim günü, 10 ildən 15 ilədək olduqda 4 təqvim günü, 15 ildən çox olduqda 6 təqvim günü əlavə məzuniyyət verilir. Qanunvericilikdə uşaqlı qadınlar üçün də əlavə məzuniyyət hüququ müəyyən olunub. Əsas və əlavə məzuniyyətlərin müddətindən asılı olmayaraq, 14 yaşınadək iki uşağı olan qadınlara 2 təqvim günü, 14 yaşınadək üç və daha çox uşağı olan və ya əlilliyi olan uşağı olan qadınlara isə 5 təqvim günü əlavə məzuniyyət verilir. Uşaqlarını təkbaşına böyüdən atalar, həmçinin uşaqları övladlığa götürmüş şəxslər də bu hüquqdan istifadə edə bilərlər.

# Xəzər dənizində külək enerjisi potensialı 157 giqavatdır

***Azərbaycanın Xəzər dənizində texniki ofşor külək enerjisi potensialı 157 giqavat, kommersiya baxımından səmərəli potensialı isə təxminən 38 giqavat təşkil edir.***



Bunu Bakı Enerji Həftəsi çərçivəsində Bakı Ekspo Mərkəzində keçirilən “Bərpaolunan enerji mənbələrinin enerji sisteminə inteqrasiyası: çağırışlar və həllər” adlı sessiyadakı çıxışı zamanı “SOCAR Green”in texnologiya və innovasiyalar departamentinin direktoru Elçin Tarquluyev deyib.

“Azərbaycan kifayət qədər böyük həcmdə bərpaolunan enerji resurslarına malikdir. Qısa və orta müddətli perspektivdə Azərbaycanın ən böyük potensialı Günəş və külək enerjisi sahələrindədir. Hazırda ölkədə həyata keçirilən ən iri bərpaolunan enerji layihələri də məhz bu istiqamətlərdə cəmləşib. Orta və uzunmüddətli perspektivdə isə dənizdə külək enerjisi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan bu sahədə dünyanın ən böyük potensiala malik ölkələrindən biridir. Bununla yanaşı, Azərbaycanın bioenerji və geotermal enerji sahələrində də əhəmiyyətli potensialı mövcuddur. Lakin bu texnologiyalar hazırda iqtisadi və kommersiya baxımından Günəş və külək enerjisi ilə müqayisədə daha az rəqabətqabiliyyətlidir və əsasən tədqiqat, inkişaf mərhələsindədir. Məhz buna görə də bu istiqamətlər üzrə inkişaf tempi Günəş və külək enerjisi kimi daha geniş tətbiq olunan, iqtisadi cəhətdən səmərəli texnologiyalarla müqayisədə nisbətən daha yavaşdır”, - deyə o qeyd edib.

# Zaur Ustac xarici mətbuata müsahibə verib




***Tanınmış azərbaycanlı şair, publisist, nasir Zaur Ustac Əlcəzairin “əl-Məssar əl-Ərəbi” qəzetinə müsahibə verib. Müsahibənin Azərbaycan dilində mətnini təqdim edirik:***

## Ədib

***- “Gül ətirli kitab” əsərini yazmağa sizi nə ilhamlandırdı?***

- “Gül ətirli kitab” əsərinin yaranmasının əsas ilham mənbəyi Azərbaycan poeziyasına və milli ədəbi irsimizin mənəvi gözəlliyinə olan dərin sevgim olmuşdur.

Qəndab Haqverdinin şeirlərini oxuyarkən orada səmimi duyğuların, milli-mədəni zənginliyin böyük bir poetik güclə ifadə olunduğunu hiss etdim. Bu gözəlliyi təhlil, düşüncə və bədii yozum vasitəsilə oxuculara təqdim etmək istədim.

***- Kitabınızda Qəndab Haqverdinin (Əliyeva) “Ətirli güllər” əsərini təhlil etmək qərarına necə gəldiniz?***

- “Ətirli güllər” əsəri səmimiyyəti, lirik ruhu və milli dəyərlərlə sıx bağlılığı ilə diqqətimi cəlb etdi. Bu şeirlər Azərbaycan poeziya ənənəsinin sadəliyini və zərifliyini qorumaqla yanaşı, dərin emosional qatlara malikdir. Düşündüm ki, bu əsərin təhlili oxuculara müəllifin mənəvi dünyasını və poeziyasında əks olunan mədəni mühiti daha yaxşı anlamağa kömək edəcək.

***- Azərbaycan mədəniyyətini anlamaqda ədəbi əsərlərin təhlilinin əhəmiyyəti nədir?***

- Ədəbiyyat xalqın mənəvi yaddaşıdır. Ədəbi əsərləri təhlil etməklə biz Azərbaycan xalqının adət-ənənələrini, mənəvi dəyərlərini, tarixi təcrübəsini və duyğu dünyasını daha yaxşı anlayırıq. Poeziya və nəsr nəsillərin səsini yaşadır. Ədəbi təhlil vasitəsilə biz yalnız mətnləri öyrənmir, həm də xalqımızın milli kimliyini və dünyagörüşünü kəşf edirik.

***- Milli mədəniyyətin və kimliyin ifadəsində poeziyanın rolunu necə görürsünüz?***

- Poeziya hər zaman Azərbaycan milli kimliyinin ən güclü ifadə vasitələrindən biri olmuşdur. Klassik şairlərdən müasir yazarlara qədər poeziya sevgimizi, ağrımızı, vətənpərvərliyimizi və mənəvi dəyərlərimizi əks etdirir. Azərbaycan poeziyası dilimizin, folklorumuzun, musiqimizin və adətlərimizin ruhunu daşıyır. O, milli kimliyimizi qoruyur və gələcək nəsillərə ötürür.

***- “Gül ətirli kitab” əsərini yazarkən hansı çətinliklərlə qarşılaşdınız?***

- Ən böyük çətinliklərdən biri ədəbi materiala tam obyektiv yanaşmaqla yanaşı, onun emosional atmosferini qoruyub saxlamaq idi. Həmçinin istəyirdim ki, akademik təhlillə bədii dili taraz şəkildə təqdim edim ki, həm alimlər, həm də adi oxucular kitabdan zövq ala bilsinlər. Digər bir çətinlik isə poetik incəlikləri onların ilkin gözəlliyini zəiflətmədən təqdim etmək idi.

***- Sizcə kitabınız Azərbaycan oxucularına necə təsir göstərəcək?***

- Ümidvaram ki, kitab oxucuları müasir Azərbaycan ədəbiyyatına, xüsusilə də poetik yaradıcılığa daha çox diqqət yetirməyə təşviq edəcək. Oxucuların yeni ədəbi baxışlar kəşf etməsi və ədəbi mətnlərin təhlilinə daha çox maraq göstərməsi məni sevindirərdi. Həmçinin düşünürəm ki, bu kitab gənc nəsildə milli ədəbi dəyərlərə olan sevgini daha da gücləndirə bilər.

***- Kitabın başqa ölkələrdə nəşri və ya başqa dillərə tərcüməsi planlaşdırılırmı?***

- Bəli, kitabın başqa dillərə tərcümə olunmasını və beynəlxalq oxuculara təqdim edilməsini çox istərdim. Azərbaycan ədəbiyyatı zəngin bədii və fəlsəfi irsə malikdir və dünya miqyasında tanınmağa layiqdir. Tərcümə layihələri mədəni körpülərin qurulmasına və Azərbaycan ədəbi düşüncəsinin xaricdə tanıdılmasına kömək edərdi.

***- Azərbaycan ədəbiyyatının gələcəyini necə görürsünüz?***

- Mən Azərbaycan ədəbiyyatının gələcəyini ümidverici hesab edirəm. Bu gün milli ənənələrə sadiq qalmaqla yanaşı, yeni ideyalar və müasir ədəbi yanaşmalarla çıxış edən çoxlu istedadlı gənc yazar və şairlər yetişir. Ədəbiyyat nəşriyyatlar, mədəniyyət qurumları və oxucular tərəfindən lazımi dəstəyi almağa davam etsə, Azərbaycan ədəbiyyatı beynəlxalq səviyyədə daha da görünən olacaq.

***- Azərbaycan ədəbi irsinin qorunmasının əhəmiyyəti nədir?***

- Ədəbi irsi qorumaq millətin mənəvi ruhunu qorumaq deməkdir. Klassik və müasir ədəbi əsərlərimiz əsrlərlə formalaşmış müdrikliyi, əxlaqı və bədii düşüncəni əks etdirir.

Əgər bu irsi qoruyub öyrənməsək, gələcək nəsillər öz mədəni kökləri ilə bağlarını itirə bilərlər. Buna görə də ədəbi irsin qorunması yalnız mədəni vəzifə deyil, həm də milli məsuliyyətdir.

***- Azərbaycan ədəbiyyatının dəstəklənməsində nəşriyyat və redaktorların rolunu necə qiymətləndirirsiniz?***

- Nəşriyyatlar və redaktorlar ədəbi prosesdə çox mühüm rol oynayırlar. Onlar müəlliflərin oxuculara çatmasına, nəşrlərin keyfiyyətinin yüksəlməsinə və ədəbi əsərlərin tanıdılmasına kömək edirlər. Peşəkar redaktə işi və güclü nəşriyyat təşəbbüsləri Azərbaycan ədəbiyyatının inkişafına və beynəlxalq səviyyədə tanınmasına böyük töhfə verə bilər.

***- Gənc Azərbaycan şair və yazıçılarına hansı tövsiyələri verərdiniz?***

- Gənc yazarlara çox oxumağı, ana dilinə sadiq qalmağı və səmimi yazmağı tövsiyə edərdim. Ədəbiyyat səbir, intizam və davamlı özünüinkişaf tələb edir. Eyni zamanda, yazıçılar ədəbi tendensiyaları izləyərkən öz fərdiliklərini itirməməlidirlər. Həqiqi ədəbiyyat dürüstlük, dərin müşahidə və mənəvi məsuliyyət üzərində qurulur.

***- Qarşıdakı dövr üçün yeni ədəbi layihələriniz varmı?***

- Bəli, hazırda Azərbaycan poeziyası, ədəbi tənqid və mədəni irslə bağlı bir neçə yeni ədəbi və publisistik layihə üzərində çalışıram. Həmçinin müasir Azərbaycan müəlliflərini araşdırmağa və milli ədəbiyyatımızın həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə tanıdılmasına töhfə verməyə davam etməyi planlaşdırıram.

✍ ***Söhbətləşdi: Turkia Loucif***

# Yağışımız oğurlanıb?

***S**on günlər İran, Türkiyə, Azərbaycan, İraq və Suriyada müşahidə olunan intensiv yağıntılar və bəzi bölgələrdə su anbarlarının dolması geniş müzakirələrə səbəb olub. Türk araşdırmaçı Fahrettin Taşkaya bu prosesləri iqlim dəyişiklikləri ilə deyil, "süni müdaxilələr"lə əlaqələndirərək diqqətçəkən iddialar irəli sürüb. Onun fikrincə, ABŞ və İsrail iqlim sistemlərinə təsir edən texnoloji vasitələrdən istifadə edərək bölgədə hava şəraitinə müdaxilə edir.*



"*İqlimdə müşahidə olunan dəyişiklikləri "süni müdaxilə"lərlə əlaqələndirmək elmi baxımdan düzgün yanaşma sayıla bilməz*

## Ekologiya

Taşkaya son dövrlərdə qeydə alınan güclü yağışları, daşqınları və bəzi ərazilərdə su ehtiyatlarının sürətlə artmasını bu iddialarına əsas kimi göstərir. O, xüsusilə İranda uzun illərdən sonra müşahidə olunan güclü yağışları və dağlıq ərazilərdə qar örtüyünün davamlı qaldığını vurğulayır.

Araşdırmaçı Türkiyədə baş verən sel hadisələrini, İraqda quraqlıqdan sonra müşahidə olunan yaşıllaşmanı və su anbarlarının dolmasını da təbii proseslərdən kənar kimi qiymətləndirir və bunun arxasında geosiyasi faktorların dayandığını iddia edir.

Mütəxəssislər isə bu yanaşma ilə razılaşmır və bölgədə baş verən yağıntı dəyişikliklərini qlobal iqlim sistemindəki təbii proseslərlə izah edirlər. Onların fikrincə, atmosfer dövranındakı dəyişikliklər, dəniz səthinin temperaturunun artması və El Nino-La Nina kimi iqlim hadisələri Orta Şərq regionunda yağıntıların həm artmasına, həm də azalmasına səbəb ola bilir.

Uzunmüddətli quraqlıqdan sonra güclü yağışların müşahidə olunması isə təbiətdə normal hidroloji bərpa prosesi kimi qiymətləndirilir. Su anbarlarının dolması və yaşıllaşma da bu təbii dövrlərin nəticəsi ola bilər.

İqlimə müdaxilə ilə bağlı iddialar əvvəllər də müxtəlif layihələr və nəzəriyyələr çərçivəsində gündəmə gəlib. Lakin beynəlxalq elmi təşkilatlar, o cümlədən Dünya Meteorologiya Təşkilatı, mövcud texnologiyalarla geniş regional iqlim sistemlərinin idarə olunmasının mümkün olmadığını bildirir. Onların mövqeyinə görə, yağışların yönləndirilməsi və ya böyük coğrafi ərazilərdə hava şəraitinin dəyişdirilməsi elmi cəhətdən təsdiqlənməyib. Mütəxəssislər bölgədə müşahidə olunan hava dəyişikliklərini daha çox qlobal iqlim dəyişiklikləri və atmosfer proseslərinin təbii nəticəsi kimi izah edirlər.

■ **Mövzu ilə bağlı Həsən Əliyev adına Coğrafiya İnstitutunun Xəzər dənizinin hidrometeorologiyası şöbəsinin müdiri, coğrafiya elmləri doktoru Səid Səfərov bildirib ki, iqlimdə müşahidə olunan dəyişiklikləri "süni müdaxilələr"lə əlaqələndirmək elmi baxımdan düzgün yanaşma sayıla bilməz.**

Onun sözlərinə görə, eyni dövrdə oxşar intensiv yağıntıların Dağıstan ərazisində qeydə alınması, həmçinin daha əvvəl Nyu York kimi coğrafi baxımdan tam fərqli regionlarda analoji hava hadisələrinin müşahidə olunması göstərir ki, söhbət lokal təsirlərdən deyil, daha geniş miqyaslı atmosfer proseslərindən gedir. Alim vurğulayıb ki, bu cür hadisələrin izahında əsas diqqət qlobal atmosfer sirkulyasiyasına yönəldilməlidir. Onun izahına görə, Şimal yarımkürəsində, xüsusilə Arktika üzərində formalaşan güclü soyuq hava kütlələri normal şəraitdə müəyyən sabitliklə hərəkət edir və strukturunu qoruyur. Bloklayıcı antisiklonlar kimi atmosfer anomaliyaları yarandıqda bu sistemin hərəkət sürəti zəifləyir, nəticədə soyuq hava kütlələri parçalanaraq ümumi atmosfer dövranına daxil olur və müxtəlif regionlarda qəfil və intensiv hava dəyişikliklərinə, o cümlədən güclü yağıntılara səbəb olur.

S. Səfərov əlavə edib ki, hərbi əməliyyatlar zamanı istifadə olunan bəzi texnogen vasitələrin atmosferə lokal təsiri tamamilə istisna olunmasa da, bu təsirin genişmiqyaslı və uzunmüddətli iqlim dəyişiklikləri yaratmaq gücündə olması ilə bağlı elmi əsaslandırılmış sübutlar mövcud deyil. Onun fikrincə, son illərdə müşahidə olunan iqlim anomaliyaları daha çox qlobal xarakter daşıyır və müxtəlif təbii amillərin qarşılıqlı təsiri ilə formalaşır. Bu amillər sırasında dünya okeanlarında baş verən El Nino və La Nina hadisələri xüsusi qeyd olunur. Həmin proseslər atmosferdə rütubətin paylanmasına, külək sistemlərinə və temperatur balansına ciddi təsir göstərərək müxtəlif regionlarda qeyri-adi hava şəraitinin yaranmasına səbəb ola bilir. Bundan əlavə, vulkan püskürmələri nəticəsində atmosferə atılan hissəciklər də günəş radiasiyasının paylanmasına təsir göstərərək iqlim sistemində dəyişikliklər yaradan mühüm amillərdən biridir.

S.Səfərovun fikrincə, baş verən hadisələri "süni müdaxilə" ilə əlaqələndirmək daha çox zaman uyğunluğu və təsadüfi müşahidələr əsasında formalaşan fərziyyədir. O qeyd edib ki, oxşar hava hadisələri tarixən də müxtəlif dövrlərdə baş verib, lakin əvvəlki illərdə informasiya mübadiləsinin məhdudluğu səbəbindən bu proseslər geniş ictimaiyyətə çatmayıb. Müasir dövrdə isə informasiya axınının sürətlənməsi istənilən təbii hadisənin dərhal gündəmə gəlməsinə və müxtəlif interpretasiyalara səbəb olur.

Nəticə etibarilə, alim bildirib ki, müşahidə olunan intensiv yağıntıların əsas səbəbi qlobal istiləşmə və iqlim dəyişiklikləridir. Qlobal istiləşmə yalnız temperatur artımı ilə məhdudlaşmır, həm də atmosfer proseslərinin strukturunu və qanunauyğunluqlarını dəyişdirir. Bu isə gələcəkdə daha qeyri-sabit və ekstremal hava hadisələrinin baş vermə ehtimalını artırır. Belə şəraitdə əvvəllər nadir hallarda rast gəlinən intensiv yağıntıların müxtəlif regionlarda müşahidə olunması artıq istisna deyil, iqlim sistemində gedən dərin dəyişikliklərin təbii nəticəsi kimi qiymətləndirilir.

✍ *Sevinc*



# "Bakcell" "YAŞAT" Fondunun "Hədiyyə Karvanı" layihəsinə dəstək oldu

(R)

***"Bakcell" 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə şəhid övladlarını sevindirib. "YAŞAT" Fondunun təşəbbüsü ilə reallaşdırılan ölkəmiqyaslı "Hədiyyə Karvanı" layihəsi çərçivəsində şirkət Azərbaycanın ərazi bütövlüyü uğrunda həyatını fəda etmiş qəhrəmanların övladlarına müxtəlif hədiyyələr təqdim edib.***




Ölkənin bütün bölgələrini əhatə edən layihə çərçivəsində 14 yaşadək 1600-dən çox uşağa bayram sevinci yaşadılıb. Təşəbbüs Bakcell-in dayanıqlılıq və korporativ sosial məsuliyyət istiqamətində həyata keçirdiyi fəaliyyətlərin mühüm hissəsidir. NEQSOL Holding-in tərkibinə daxil olan Bakcell, "YAŞAT" Fondu ilə birgə şəhidlərin ailə üzvlərinə və müharibə əlillərinə sosial dəstək layihələrini davamlı olaraq həyata keçirir. Bu əməkdaşlıq NEQSOL Holding və "YAŞAT" Fondu arasında əməkdaşlıq çərçivəsində həyata keçirilir. Bakcell cəmiyyətin rifahına və gələcək nəsillərin inkişafına töhfə verən sosial layihələrə dəstəyini davam etdirir.

Bakcell haqqında

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

Bakcell müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar, tikinti və mədənçıxarma sahələrində fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.


## HƏFTƏ REYTİNQ

### Həftənin SƏFİRİ



Ağ ev ABŞ-nin Azərbaycandakı yeni səfiri postuna namizəd irəli sürüb. Bu barədə məlumat Ağ evin saytında yer alıb. Bildirilib ki, sözügedən vəzifəyə Virciniya ştatından Aleksandr Aldenin namizədliyi irəli sürülüb. Təyinat təsdiqlənməsi üçün Senata göndərilib. Xatırladaq ki, ABŞ-nin Azərbaycandakı daha əvvəlki səfiri Mark Libbi idi.

### Həftənin TƏBRİKİ



Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında telefon danışığı olub. "Telefon danışığı zamanı Ali Avrasiya İqtisadi Şurasının mayın 29-da Astanada keçirilmiş iclasının yekunları müzakirə olunub", - məlumatda deyilir. Putin söhbət zamanı Ermənistan Baş nazirini ad günü münasibətilə də təbrik edib.

### Həftənin KONSERTİ



Dünyaca məşhur reper Trevis Skottın İstanbulda keçirilən konserti tədbirdən sonra geniş müzakirələrə səbəb olub. Bilet qiymətlərinin bəzi kateqoriyalarda 50 min türk lirəsinə qədər (təxminən, 1 851 manat) yüksəldiyi konsertdə reperin səhnədə cəmi 20 dəqiqə qalması tamaşaçıların narazılığına səbəb olub.

### Həftənin QADAĞASI



Tunis millisinin üzvü Louey Ben-Farhatın atası oğluna dünya çempionatına getməyə icazə verməyib. Bunu yığmanın baş məşqçisi Sabri Lyamuşi açıqlayıb. O bildirib ki, Almaniyanın "Karlsrue" klubunda çıxış edən 19 yaşlı oyunçunu heyətə dəvət etmək istəyib. Amma atası oğlunun mundialda pis çıxışının gələcək karyerasına təsir edəcəyini düşünərək, ABŞ-yə yollanmasına icazə verməyib.

### Həftənin QAZANCI



Texnologiya nəhəngi "Dell Technologies"in səhmlərinin kəskin bahalaşması şirkətin təsisçisi və baş direktoru Maykl Dellin sərvətini bir gündə 35,8 milyard dollar artırıb. Şirkət səhmləri birjada 32,1 faiz yüksələrək tarixinin ən uğurlu ticarət gününü yaşayıb. Bununla da Maykl Dellin xalis sərvəti 245,9 milyard dollara çatıb və o, dünyanın ən varlı şəxsləri siyahısında ön sıralara yüksəlib.

### Həftənin İNFLYASİYASI



İranda istehlak qiymətləri indeksi may ayında keçən ilin eyni ayı ilə müqayisədə 77,2faizə çatıb. Bu göstərici aprel ayı ilə müqayisədə 8,5% çox olub. Əczaçılıq məhsulları, taksi qiymətləri, tütün məmulatları, rabitə xidmətləri kimi gündəlik və ümumi istehlak malları seqmentində inflyasiya illik müqayisədə 113,8% artıb. İranda inflyasiya yalnız 1942-ci ildə yüksək səviyyəyə çatıb.

✍ *Azad Əliyev*

## GÜNÜN FOTOSU



Ukrayna Rusiyanın son hücumlarından sonra

"

## Rusiyanın təhdidi, Paşinyanın dirənişi

**Azər Badamov,**
Milli Məclisin deputatı

Moskva rəsmi İrəvanı xəbərdar edir ki, Ermənistanın Avrasiya İqtisadi İttifaqından uzaqlaşması və ya təşkilatdan çıxması ölkə iqtisadiyyatı üçün ciddi nəticələr doğura bilər.

▸▸ Səh. 5

## STATİSTİKA



■ **2026-cı ilin yanvar-aprel aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı (qeyri-monetar qızıl istisna olmaqla) 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 13 faiz artaraq 1,1 milyard dollar təşkil edib.**

Yanvar-aprel aylarında aqrar məhsullar üzrə ixrac 28,3 faiz artaraq 298,3 milyon dollar, aqrar-sənaye məhsulları üzrə ixrac 31,6 faiz artaraq 119 milyon dollar təşkil edib.

Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 29,1 faiz artaraq 417,3 milyon dollara bərabər olub.



▸▸ Səh. 6

## Pensiya fonduna toplanan vəsaiti niyə ala bilmirik?